RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 202 (8795) ÇƏRŞƏNBƏ, 22 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev Zəfərinin Şuşa təntənəsi

## Mədəniyyət paytaxtımız əvvəlki şöhrətini özünə qaytarır

"Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!"

8 noyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin iftixar və qürur hissi ilə Azərbaycan xalqına verdiyi bu şad xəbər ürəklərimizdə illərdir daş kimi asılıb qalan Qarabağ dərdini bir andaca əritmiş, eyni zamanda qəlblərimizin şah taxtında yer tutan Şuşanın azadlığının yaratdığı sevinc hissindən kövrəlmişdik...

Bu, bütün Qarabağın, işğal altında qalan torpaqlarımızın azadlığının müjdəsi idi. Qəlblərimizin müqəddəs qibləsinin, mədəniyyət beşiyimizin xilasının şadlığı idi...

Yaradan bu füsunkar diyarda elə bir möhtəşəm qəsr ucaldıb ki, sütunları sıldırım qayalardan, tağları əzəmətli dağlardan yonulub. Tanrı Şuşaya zümzüməli bulaqlar, çağlayan şəlalər, zümrüd meşələr, sevgi simvolu xarıbülbüllər ərməğan edərək, bu büllur sarayı sanki Yer üzünün cənnəti kimi var edib.

Bu qədim və qüdrətli şəhər tarixi, yerləşdiyi ərazi, mədəni arxitekturası, incəsənəti, maddi-mənəvi irsi, yetişdirdiyi görkəmli şəxsiyyətləri ilə dünya şəhərləri içərisində təkrarolunmaz məkandır.

Ardı 6-cı səh.

# Təhsil sahəsində müasir standartlara uyğun layihələr icra edilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 21-də paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Bakı Avropa Liseyinin yeni binasında yaradılan şərait barədə məlumat verdi.

Ardı 2-ci səh.

# Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələr uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı investisiya qoyuluşu, logistika sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda bildirildi ki, Azərbaycanın təşəbbüskarı olduğu yeni nəqliyyat dəhlizlərinin açılması və ölkəmizdə azad ticarət zonasının fəaliyyətə başlaması həm ölkələrimiz arasında, həm də regionda iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaq.

# "Doing Business"in saxtakarlığından Azərbaycan yalnız ziyan çəkmişdir

## Ölkəmizin hesabatdakı reytinqi bu səbəbdən 6 pillə aşağı düşmüşdür

Dünya Bankının "Doing Business"in hesabatlarında üzə çıxardığı qeyri-dəqiqliklər ətrafında səs-küy və diskussiyalar davam edir.

Milli Məclisin deputatı Azər Badamov hesab edir ki, "Doing Business" hesabatının reytinq sıralaması ölkələrdə biznes və investisiya mühitinin əlverişliliyi, o cümlədən dünya iqtisadiyyatındakı mövcud vəziyyətin müəyyənləşdirilməsində böyük rol oynayırdı: "Lakin 2020-ci ilin reytinq hesabatının hazırlanmasındakı qərəz və maraqlara xidmət faktlarının üzə çıxması xoşagələn hal deyil".

Bax: səh. 5

# «Dördüncü dalğa»ya hazır olmalıyıq

## Adi qrip koronavirus qədər təhlükəli olmasa da, ondan da qorunmalıyıq

**Son günlərin statistik rəqəmləri göstərir ki, koronavirus getdikcə geri çəkilir. Amma bu o demək deyil ki, qayıtmayacaq. Bəs bu barədə mütəxəssislər nə deyirlər?**

Həkim-radioloq Aydın Əliyev mətbuata açıqlamasında bildirib ki, ağırlaşan xəstələr peyvənd etdirməyənlər və vaxtından əvvəl lazımsız dərman preparatları qəbul edənlərdir: "COVID-19 xəstəliyi zamanı KT-də və rentgendə görünən "buzlu şüşə" mənzərəsi, kölgəliklər Virxov triadasından yaranan trombozun nəticəsidir. Koronavirus xəstəliyi zamanı ağciyərlərdə yaranan "buzlu şüşə" mənzərəsinin ən effektli müalicəsi antikoaqulyantların tətbiqidir. Antiviral və antibiotiklərin müsbət təsiri sübut edilməyib, onlar qaraciyərə toksiki təsir edərək virusla mübarizəni çətinləşdirirlər".

Koronavirusun dalğavari inkişafı mütəxəssisləri ciddi düşündürən məsələdir. Kimsə pandemiyanın ilk günlərində deyə bilməzdi ki, bizi qarşıda neçə dalğa gözləyir. Zaman keçdikcə virusun müxtəlif ştamlarına rast gəldik. Bundan sonra virusoloqlar etiraf etməli oldular ki, COVID-19 dalğalarla yayılır. Amma hər ölkədə dalğa sayları eyni olsa da, bəzilərində gec, bəzilərində tez başlayır. Seçenov adına Tibb Universitetinin mütəxəssisi Artyom Gil yeni dalğaya səbəb olacaq faktorları açıqlayıb: "Dördüncü dalğa oktyabrın əvvəllərində gözlənilir. Mənim fikrimcə, bu mövsümi olaraq, havaların soyuması, respirator xəstəliklərin yayılması, eləcə də təhsil müəssisələrinin açılması, məzuniyyətdən qayıtma və insanların daha çox qapalı məkanlarda olması ilə əlaqədardır. İstənilən halda, hətta qapanma olsa belə, 4-cü dalğa qaçılmazdır. Biz artıq bunun öncəki epidemioloji faktorlarını görürük".

Həkim onu da əlavə edib ki, hazırda üçüncü dalğanın sonudur. Rusiya üzrə sutkalıq ölüm təxminən 800 nəfərdir. Dördüncü dalğanın pikində bu rəqəm 1500-ə çata bilər: "Nəyə görə? Bunun bir səbəbi populyasion immunitetin aşağı səviyyədə olmasıdır. Rusiyada vaksinasiya cəmi 30 faiz insanı əhatə edir. Əhalinin 80 faizi də virusa yoluxmayıb ki, kütləvi immunitet yaransın. Bir doza ilə peyvənd olunanlar da dördüncü dalğaya düşəcək və yoluxacaq. Digər faktor - payız və qışda daha yoluxdurucu ştamların yayılmasıdır. "Delta" variantı bütün hallarda qeydə alınıb. Lakin ondan ölüm halı elə də çox deyil. Amma "Delta" qış ştamları ilə qarışsa, ölüm sayının artmasına ciddi təkan verəcək. Artıq heç bir qurum, şirkət işçiləri evdən işləməyə göndərilməyəcək, karantin qaydaları sıradan çıxır. Mağaza, kafelər, məktəblər - hər yer açıqdır. Bu da dördüncü dalğanı əvvəlkilərdən fərqləndirəcək. Çünki ötən il həmin məkanlar bağlı idi".

Həkim deyir ki, insanların arxayınlaşması, virusu saymaması bizə baha başa gələcək. İndi marketlərdə, metroda belə, heç kim dezinfeksiyaedici məhlula yaxınlaşmır.

Ardı 7-ci səh.

# Təhsil eyni, geyim fərqli ...

## Dövlət liseylərində geyimlər yalnız görünüşünə görə deyil, qiyməti ilə də adi məktəb formalarından fərqli və bahadır

Azərbaycanda dövlət ümumtəhsil məktəblərində, lisey və gimnaziyalarda fərqli məktəbli formaları tətbiq edilir.

Özəl liseylər kimi dövlət lisey və gimnaziyaları da geyim formasının dizaynını özü müəyyən edərək onun istehsalının təşkili məsələsi ilə də məşğul olur.

Lakin orta məktəblə liseylərin və gimnaziyaların geyim forması arasındakı fərqlilik yalnız onların görünüşündə deyil, həm də satış qiymətlərində də görsənir. Orta məktəblərin bir dəst geyim forması 40-46 manata satıldığı halda, lisey və gimnaziyaların geyimləri 75-100 manata satılır.

Ardı 7-ci səh.

# "Üç qardaş-2021" beynəlxalq təliminin təntənəli bağlanış mərasimi keçirilib



**Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş - 2021" beynəlxalq təliminin bağlanışına həsr olunan təntənəli mərasim keçirilib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə təlimlərin başa çatması münasibətilə Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyev hərbi qulluqçuları təbrik edib.**

Ardı 5-ci səh.

# Masallıda çəltik biçini gedir

## Bu il rayon üzrə 281 hektarda çəltik becərilib

- Dədə-babadan çəltik əkib-becərməklə məşğul olmuşuq, onunla dolanmışıq. Lazımi qədərini ruzi kimi götürdükdən sonra qalanını satıb dərdimizə-sərimizə məsrəf etmişik. Yanındakı bu cavan, cüssəli oğlan nəvəm Elmidardır. 90-cı illərdə onun anasının və digər uşaqlarının toyunu düyü ilə yola vermişəm.



- Zakir kişi, eşitmişəm, sovetlər zamanı çəltik əkib-becərməyə imkan verilməyib, - deyə soruşuram.

- Düzdür, ona görə ki, onda Moskvaya, Rusiyanın digər şəhərlərinə tərəvəz lazım idi. Həmin məqsədlə bu ərazilərdə pomidor, xiyar, bibər, digər tərəvəzlər yetişdirilirdi.

Bax: səh. 5

# Təhsil sahəsində müasir standartlara uyğun layihələr icra edilir








*Əvvəli 1-ci səh.*

İnşasına ötən il başlanılan bu tədris müəssisəsində 70 sinif otağından başqa fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi hazırlıq kabinetləri, kino məktəb, rəsm, diplomatiya, kiçik elmlər akademiyası otaqları, art-studio, idman və akt zalları, yeməkxana müəllimlərin və şagirdlərin ixtiyarına veriləcək. Bir sözlə, burada yaradılan şərait istedadlı şagirdlərin intellektual və yaradıcı potensialının üzə çıxarılması və inkişafı, onların yüksək mənəvi və mədəni dəyərlərə əsaslanaraq formalaşdırılması üçün geniş imkanlar yaradır.





Qeyd edək ki, istedadlı uşaqlar üçün yaradılmış Bakı Avropa Liseyi Təhsil Nazirliyinin tabeliyində olan dövlət məktəbidir. Hər il məzunlarının 100 faizi ali məktəblərə yüksək balla daxil olan liseyin yetirmələri dünyanın bir çox nüfuzlu universitetlərində təhsillərini davam etdirirlər.

Liseyin özünəməxsus təhsil modeli var. Mühəndis, robot, iclas, incəsənət, elm və kids zonalarına bölünən steam otaqda şagirdlər üçün müasir dövrün tələblərinə uyğun hər cür şərait yaradılıb.

Məlumdur ki, müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsilinin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər inkişaf konsepsiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu baxımdan Azərbaycanda dövlət səviyyəsində çox əhəmiyyətli layihələr ardıcıl şəkildə həyata keçirilir. Görülən bütün bu işlər yüksək intellektə malik insan kapitalının yetişməsində, beynəlxalq standartlara uyğun müasir təhsil sisteminin qurulmasında mühüm rol oynayır, peşəkar, bilik və bacarıqlara yiyələnən, daim rəqabətə davamlı insan resurslarının təmin edilməsinə böyük töhfə verir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı reallaşdırılan kompleks tədbirlər nəticəsində bu sahədə böyük uğurlar əldə olunub, müasir innovativ tədris üsulları uğurla tətbiq edilib.

# Məktəblərin və tədris korpuslarının inşası istiqamətində ardıcıl işlər görülür





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də paytaxtın Sabunçu rayonunda 71 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov 71 saylı orta məktəbdə aparılan əsaslı təmir işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, şagird sıxlığı nəzərə alınaraq, təhsil ocağı üçün 864 yerlik, 30 sinif otağından ibarət əlavə korpus da inşa olunub.




Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli inkişaf konsepsiyasında təhsil sahəsi də prioritet yer tutur. Respublikanın hər yerində, o cümlədən paytaxtda məktəblərin əsaslı təmiri, yenidən qurulması, yeni təhsil ocaqlarının və tədris korpuslarının inşası istiqamətində ardıcıl işlər görülür. Bütün bunlar, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil alması, elmin sirlərinə daha dərindən yiyələnməsi üçün hərtərəfli imkanlar açır. Bu, eyni zamanda Azərbaycan dövlətinin gənc nəslin savadlı, bilikli, intellektual səviyyədə yetişməsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Qeyd edək ki, Sabunçu rayonundakı 71 saylı orta məktəbin binası 1980-ci ildə inşa olunub. 1176 şagird yerlik binada sinif otaqları ilə yanaşı, fənn laboratoriyaları, akt və idman zalları da müasir səviyyədə şagirdlərin ixtiyarına veriləcək. Sinif otaqları və laboratoriyalar zəruri tədris avadanlığı ilə təchiz edilib.

# Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də paytaxtın Sabunçu rayonundakı 307 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 2006-cı ildə inşa edilən 1176 şagird yerlik 307 saylı tam orta məktəbin binası əsaslı təmir olunub, 15 sinif otağından ibarət əlavə korpus tikilib. Yeni korpus 432 şagird yerlikdir. Təhsil müəssisəsində kimya, fizika, biologiya laboratoriyaları, hərbi kabinet, kitabxana var. Şagirdlər laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra biləcəklər. Təhsil ocağında eyni zamanda hərbi hazırlıq, qızlar və oğlanlar üçün əmək otaqları, akt və idman zalları da yaradılıb.

Qeyd edək ki, Sabunçu rayonundakı həm 71 saylı, həm də 307 saylı tam orta məktəblərdə aparılan əsaslı təmir və tikinti işləri dövlət başçısının "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" ötən il və bu il imzaladığı müvafiq sərəncamlara uyğun olaraq həyata keçirilib.

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan dövləti bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir.












## Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Perm Dövlət Milli Tədqiqat Universitetində atışma nəticəsində həlak olanlar və yaralananlar barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verir, zərərçəkmişlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 21 sentyabr 2021-ci il*

## "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030, № 12 (I kitab), maddə 2330; 2018, № 5, maddə 901, № 10, maddə 1991, № 12 (I kitab), maddə 2592; 2019, № 5, maddə 857, № 12, maddə 1923; 2020, № 5, maddə 541) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissədə "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" üzrə:

1.2.1. 1.1-ci bəndə (ikinci halda) "sahibkarların" sözündən sonra "Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond) Himayəçilik Şurası tərəfindən müəyyən edilən iqtisadi fəaliyyət sahələri üzrə" sözləri əlavə olunsun və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond)" sözləri "Fondun" sözü ilə əvəz edilsin;

1.2.2. 4.6-cı bənddə "ilk 12 (on iki) ay üçün" sözləri "kredit verildiyi tarixdən həmin ilin sonunadək" sözləri ilə əvəz edilsin;

1.2.3. 5.6.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.6.4-cü yarımbənd əlavə edilsin:

"5.6.4. faiz subsidiyasının verilməsi üçün müraciət olunan kredit bu Qaydanın 1.1-ci bəndinə əsasən Fondun Himayəçilik Şurasının müəyyən etdiyi iqtisadi fəaliyyət sahələrinə uyğun olmadıqda.".

2. Bu Fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

## "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5 maddə 435; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyun tarixli 1364 nömrəli, 17 iyun tarixli 1368 nömrəli və 18 avqust tarixli 1430 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi" üzrə:

1.1. 2.2.3-1-ci və 3.1.1-1-ci yarımbəndlər ləğv edilsin;

1.2. 3.1.4-cü yarımbəndə "DOST" mərkəzlərinin" sözlərindən əvvəl "DOST" mərkəzlərində göstərilən xidmətlərlə əlaqədar monitorinqlər aparmaq, habelə" sözləri əlavə edilsin;

1.3. 3.1.18-ci yarımbəndə "müəssisələri ilə" sözlərindən sonra ", qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə" sözləri əlavə edilsin;

1.4. 3.2.11-ci yarımbənddən "və göstərilən xidmətlərin" və "və təkmilləşdirilməsi" sözləri çıxarılsın.

2. Həmin Fərmanla təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 2.6-cı və 10.9-cu bəndlər əlavə edilsin:

"2.6. əmək qanunvericiliyinin pozulmasına dair müraciətlərin qəbul edilməsi";

"10.9. mediasiya xidmətlərinin təşkili";

2.2. 4.10-cu bənddən ", monitorinq aparılması" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

## "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2868 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2868 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 537; 2010, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 343; 2020, № 5, maddə 601) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədə "səhmləri dövlətə məxsus olduğu üçün dövlətin adından müəyyən səlahiyyətlərin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına" sözləri "ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara" sözləri ilə əvəz edilsin;

1.2. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;";

1.3. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.1-1.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Cəmiyyətin nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.1-1.2. idarəetmə orqanlarının yaradılması;";

1.4. 2.2.1-ci və 2.2.5-ci yarımbəndlər ləğv edilsin;

1.5. 2.2.3-cü yarımbəndə "Cəmiyyətin" sözündən sonra "sədrinin və" sözləri əlavə edilsin;

1.6. 2.3-cü bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

## Baş nazir Əli Əsədov "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

"DP World" şirkətinin Azərbaycanda nəqliyyat, logistika və digər sahələrdə fəaliyyətinin perspektivləri müzakirə olunub.

## Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib






**Sentyabrın 21-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2022-ci il və sonrakı üç il üçün dövlət və icmal büdcə layihələri, 2021-2025-ci illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, həmçinin Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən sığorta fondunun 2022-ci il üçün büdcə layihələri müzakirə olunub.

# Milli Məclisdə postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri müzakirə olunub

**Milli Məclisdə "Vətən müharibəsinin birinci ildönümü: postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri" mövzusunda videokonfrans keçirilib.**

Konfransda Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, parlamentin rəhbərliyi, komitə və komissiya sədrləri və müavinləri, həmçinin Prezident Administrasiyasının və Milli Məclis Aparatının əməkdaşları iştirak ediblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova VI çağırış Milli Məclisin fəaliyyətində bu cür konfransların keçirilməsinin yaxşı bir ənənəyə çevrildiyini bildirərək, bugünkü tədbirdə müzakirə edilən mövzunun da kifayət qədər aktual olduğunu deyib. Sahibə Qafarova bu günlərdə Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin ən şanlı səhifəsini təşkil edən Vətən müharibəsinin birinci ildönümünün tamam olduğunu xatırladaraq, illər keçsə də, Azərbaycan xalqının həmin tarixi günləri heç vaxt unutmayacağını, hər zaman böyük fəxarət hissi ilə xatırlayacağını söyləyib. O, ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsinin Azərbaycanın tarixi Qələbəsi ilə başa çatdığını, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanatla münaqişəyə son qoyulduğunu, bu sənədin həmçinin Ermənistanın kapitulyasiya aktı olduğunu, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdırıb. Bu şanlı Qələbənin Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin, yeni dövrün başlanğıcı olduğunu bildirən parlamentin sədri vurğulayıb ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrüdür. Bu mərhələdə Azərbaycan dövlətinin qarşısında duran vəzifələr, hədəflər cari il yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çox aydın şəkildə ifadə edilib. Sahibə Qafarova bildirib ki, bu strateji hədəflər, ilk növbədə, regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması, işğaldan azad edilən tarixi torpaqlarımızda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılması, həmin ərazilərin yenidən dirçəldilməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının təmin edilməsi ilə bağlıdır. Prezident İlham Əliyevin Şuşa şəhərinə, işğaldan azad olunmuş digər şəhər və rayonlarımıza səfərləri, həmin səfərlər çərçivəsində çox mühüm tədbirlərdə iştirakı, açılış və təməlqoyma mərasimlərinin keçirilməsi bir daha Azərbaycan dövlətinin gücünü və qüdrətini hər kəsə nümayiş etdirir. Bu tədbirlər həm böyük rəmzi məna daşıyır, həm də həyata keçirilən layihələr milli iqtisadiyyatımızın inkişafına təkan verir.







Ermənistanın 30 il ərzində işğal altında saxladığı şəhər və rayonlarımızı, binaları, tarixi abidələri, məscidləri dağıtdığını, talan etdiyini xatırladan Sahibə Qafarova deyib ki, hazırda qarşımızda duran mühüm prioritetlərdən biri Ermənistanın törətdiyi bu vəhşilikləri və digər təxribatları beynəlxalq ictimaiyyətə dolğun çatdırmaqdır.

Videokonfransda müzakirə olunan mövzunun aktuallığına toxunan parlamentin sədri xatırladıb ki, VI çağırış Milli Məclis fəaliyyətə başlayandan sonra bu sahədə bir sıra mühüm addımlar atılıb. Postmüharibə dövründə də bu istiqamətdə uğurlu əməkdaşlıq davam etdirilir. Milli Məclis Sədrinin sözlərinə görə, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir. S.Qafarova Milli Məclisin deputatlarının seçicilərlə işinin düzgün əsasda qurulması, seçici müraciətlərinin dövlət qurumları tərəfindən cavablandırılması, onların qaldırdıqları məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, şəhid ailələri, müharibə veteranları, döyüşlərdə sağlamlığını itirmiş qəhrəman övladlarımıza diqqət və qayğıya əsaslanan dövlət siyasətinin dəstəklənməsi, Milli Məclisin təşəbbüsü, müvafiq nazirliklərin və dövlət komitəsinin rəhbər heyətinin və əməkdaşlarının iştirakı ilə parlamentdə cəmiyyəti narahat edən bir sıra məsələlərin ictimai müzakirəsinin keçirilməsi, ölkəmizdə yeni siyasi konfiqurasiyada dialoq mühitinin möhkəmlənməsinə, siyasi sistemin subyektləri arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verilməsi, parlamentin beynəlxalq fəaliyyətinin daha səmərəli həyata keçirilməsi, eyni zamanda Azərbaycanın milli maraq və mənafelərinin daha yaxşı qorunması kimi prioritet məsələlər haqqında fikirlərini ifadə edib.

Sonra çıxış edən Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət və xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsinin başlandığını, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bu gün həyata keçirilən quruculuq işlərinin - vandallar tərəfindən yerləyeksan edilmiş şəhər və kəndlərimizin sürətlə bərpasının əzəli torpaqlarımıza qayıdışımızı günbəgün yaxınlaşdırmaqla yanaşı, bütün dünyaya ölkəmizin qüdrətini, dövlətimizin başçısının möhkəm iradəsini, yüksək idarəçilik məharətini və qurub-yaratmaq əzmini nümayiş etdirdiyini diqqətə çatdırıb. O, müxtəlif dövlət orqanları və qurumları ilə yanaşı, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrin də göstərilən fəaliyyətə əsaslı təkan verdiyini vurğulayıb.

Şöbə müdiri bildirib ki, indi tarixi Qələbəmizin möhkəmləndirilməsi, şəhid ailələri və müharibə iştirakçılarına qayğının davam etdirilməsi, düşmən tapdağından azad olunmuş ərazilərimizin dirçəldilməsi, erməni təcavüzkarlığının yenidən baş qaldırmaması və təqsirkarların məsuliyyətə cəlb edilməsi üçün haqq işimizlə bağlı beynəlxalq müstəvidə məqsədyönlü fəaliyyət göstərilməsi bütünlükdə Azərbaycan cəmiyyətinin qarşısında duran ən əsas vəzifələrdəndir.

Ədalət Vəliyev Prezident İlham Əliyevin apardığı sistemli və çoxşaxəli inzibati-siyasi islahatların nəticələrindən danışaraq ölkədə iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu, siyasi partiyalarla işin yenidən təşkil edildiyini deyib. Bildirilib ki, dövlət başçısının tapşırığı əsasında üzvlərinin sayına, yaxud ölkə ərazisinin əhatə vəziyyətinə görə böyük-kiçikliyindən, siyasi çəkisindən və ya hər hansı digər amildən asılı olmayaraq, ölkədəki bütün siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirilib və hər bir görüşün nəticələri müfəssəl təhlil olunaraq verilmiş təkliflər üzrə müvafiq addımlar atılır.

Fərdi görüşlərlə yanaşı, siyasi partiyaların mütləq əksəriyyətinin iştirakı ilə müxtəlif mövzularda çoxtərəfli görüşlər də təşkil edildiyini vurğulayan şöbə müdiri bu qəbildən olan sonuncu - 45 siyasi partiyanın iştirakı ilə keçirilmiş 9 sentyabr tarixli görüşdə aparılan müzakirələrdə çıxış edənlərin dövlət başçısının ölkədə formalaşdırdığı yeni siyasi konfiqurasiyanın davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında əhəmiyyətini, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qazanılmış Zəfərin Azərbaycan tarixində ən əlamətdar hadisə kimi yerini xüsusi qeyd etdiklərini, dövlət başçısının işğaldan azad olunmuş ərazilərə səfərləri, bu şəhər və kəndlərdə yüksək sürətlə həyata keçirilən bərpa-quruculuq işləri, yolların salınması, elektrik stansiyalarının, aeroportların tikilməsi, "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri kimi mədəni tədbirlərin təşkil olunmasını yüksək qiymətləndirdiklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmçinin bildirilib ki, siyasi partiyalar xarici siyasət sahəsində atılmış addımları, Şuşa Bəyannaməsinin imzalanmasını, eləcə də Azərbaycan Respublikası Prezidentinin Qərbi Zəngəzurla bağlı mövqeyini təqdir edir və dəstəkləyir. Dövlət başçısının zamanın tələbləri ilə uzlaşan islahat və inkişaf konsepsiyasının növbəti mərhələsinin səciyyəvi cəhətlərinə toxunan Ədalət Vəliyev müxtəlif siyasi qüvvələrin adekvat təmsil olunduğu VI çağırış Milli Məclisdə yeni demokratik mühit formalaşdığını, müxalifət nümayəndələrinin parlamentdə rəhbər vəzifələr tutduğunu deyib. Qeyd edilib ki, Milli Məclisin fəaliyyətinin dövlət başçısının daxili və xarici siyasətinə, eləcə də tövsiyələrinə uyğun olaraq yüksək səviyyədə qurulması üçün zəruri addımların atılması, o cümlədən deputat fəallığının artırılması ilə vətəndaş məmnunluğu yüksəldilib.

Ədalət Vəliyev çıxışında həmçinin icra hakimiyyəti ilə qanunvericilik hakimiyyəti arasında əməkdaşlığın daha da təkmilləşdirilməsi perspektivlərinə toxunaraq konkret istiqamətlər üzrə xüsusi diqqət yetirilməsi zəruri olan məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırıb, işin daha yüksək səviyyədə qurulmasına xidmət edən müvafiq təkliflər səsləndirib.

Sonra müzakirələrə başlanılıb.

Müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, İntizam Komissiyasının sədr müavini, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov, Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, müzakirə olunan mövzu barədə fikir və təkliflərini səsləndiriblər.

Çıxışlarda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş Zəfərin, habelə son illər aparılmış siyasi-hüquqi-institusional islahatların dövlətçiliyimizin inkişafında açdığı yeni mərhələnin səciyyəvi cəhətləri təhlil edilib, ölkənin yeni siyasi konfiqurasiyasının davamlı sabitliyin təmini və dayanıqlı inkişaf üçün əhəmiyyəti vurğulanıb, həmçinin Milli Məclisin müvafiq proseslərdə iştirakı, verə biləcəyi töhfələr, eləcə də parlamentin icra hakimiyyəti orqanları ilə daha sıx əməkdaşlıq qurması perspektivləri nəzərdən keçirilib.

## Milli Məclisdə aqrar sahədə işlərin gedişi ilə əlaqədar dinləmələr keçiriləcək

Sentyabrın 21-də Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitənin sədri Tahir Rzayev gündəlik barədə məlumat verib. Diqqətə çatdırılıb ki, gündəliyə iki məsələ - Milli Məclisin 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə hesabat və komitənin 2021-ci il payız sessiyası üçün iş planının layihəsi daxil edilib.

2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə məlumat verən komitə sədri bildirib ki, ötən dövr Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərin nəticələri və sevinci ilə müşayiət olunub. Qeyd olunub ki, ölkədə baş verən ictimai-siyasi hadisələrə münasibətdə komitə üzvləri fəallıq göstərib, kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə və iştirak etdikləri tədbirlərdə ölkənin və regionun aktual məsələləri ilə bağlı fikirlərini bildiriblər, milli maraqlarımızın müdafiəsi ilə bağlı prinsipial mövqe nümayiş etdiriblər.

Hesabat dövründə komitənin 13 iclası keçirilib və 17 məsələ müzakirə olunub. Bundan başqa, aqrar sektorun inkişafı və perspektivləri ilə əlaqədar komitə üzvləri müvafiq dövlət qurumları ilə əlaqə saxlayıblar, müxtəlif konfrans, yığıncaq və tədbirlərdə, mətbuat səhifələrində rəy və təkliflərlə çıxış ediblər. Hesabat dövründə komitənin ünvanına daxil olan ərizə və müraciətlər araşdırılıb, qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb.

Milli Məclisin Aqrar siyasət komitəsinin 2021-ci ilin payız sessiyası üçün iş planı haqqında məlumat verən Tahir Rzayev bildirib ki, komitəyə daxil olacaq qanun layihələri ilə yanaşı, qarşıdakı sessiyada "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin müzakirəyə çıxarılması nəzərdə tutulub. Eyni zamanda işğaldan azad olunan ərazilərdə aqrar vəziyyətlə tanışlıq, aqrar sahənin inkişafı üçün vacib məsələlərin müzakirəsi, ilin yekununda Kənd Təsərrüfatı Nazirliyinin iştirakı ilə aqrar sahədə işlərin gedişi ilə əlaqədar dinləmələrin keçirilməsi planlaşdırılıb.

Sonra deputatlardan Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov, Aydın Hüseynov müzakirə olunan məsələlərlə bağlı çıxış ediblər. Vurğulanıb ki, hesabat dövründə dövlət başçısının uzaqgörən daxili və xarici siyasətinin, xüsusən də həyata keçirilən islahatların qanunvericilik bazasının yaradılması ilə bağlı mühüm qərarlar və qanunlar qəbul olunub. Qeyd olunub ki, komitə üzvləri öz seçiciləri ilə xüsusi karantin rejiminin tələblərinə uyğun daimi əlaqə saxlayıblar, şəhid ailələri ilə, qazilərlə görüşüblər, onların problemləri ilə yaxından maraqlanıblar.

İclasda Aqrar siyasət komitəsi sədrinin müavini Sabir Hacıyev, deputatlar İqbal Məmmədov və Emin Hacıyev də iştirak ediblər.

## Milli Məclisin İnsan hüquqları komitəsinin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib

Sentyabrın 21-də Milli Məclisin İnsan hüquqları komitəsinin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Zahid Oruc gündəliyə komitənin 2021-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabat, payız sessiyası üçün iş planının layihəsi daxil edildiyini deyib.

Diqqətə çatdırılıb ki, keçən dövr ərzində komitə səmərəli fəaliyyət göstərib. Ötən sessiyalarda komitənin 10 iclası keçirilib, 16 məsələ müzakirə olunub. Komitə tərəfindən 6 qanun layihəsi Milli Məclisin müzakirəsinə tövsiyə edilib və qəbul olunub. Komitədə həmçinin Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2020-ci il üzrə məruzəsi və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı dinlənilib. Bununla yanaşı, Vəkillər Kollegiyası ilə birgə vəkillik fəaliyyəti ilə bağlı onlayn tədbir, insan hüquqları profilli QHT-lərlə görüş keçirilib. Komitə üzvləri müxtəlif KİV-də, o cümlədən sosial media platformalarında aktual məsələlər barədə çıxışlar ediblər, seçiciləri ilə görüşüblər.

Bildirilib ki, hesabat dövründə komitəyə 515 ərizə və şikayət daxil olub, bir sıra məsələlər öz həllini tapıb. Komitə tərəfindən 195 vətəndaş onlayn və ənənəvi qaydada qəbul edilib.

Sonra komitənin cari ilin payız sessiyası üçün iş planına baxılıb. Bildirilib ki, bu sessiya ərzində qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan qanun layihələrinin müzakirəsi, mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bəzi qanunlara dəyişikliklərin edilməsi nəzərdə tutulub. Komitədə Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində törədilən cinayətlərin, Azərbaycan dövlətinə dəymiş ziyanın, ölkə vətəndaşlarının pozulmuş hüquqlarının müdafiəsinin beynəlxalq instansiyalarda baxılması məsələsi ilə bağlı və digər mövzularda dinləmələrin keçirilməsi planlaşdırılır.

Qarşıdakı müddətdə ölkədə medianın, o cümlədən sosial şəbəkələrin mövcud durumu və inkişaf strategiyası ilə bağlı İnsan hüquqları üzrə müvəkkilin və Medianın İnkişafı Agentliyinin iştirakı ilə fikir mübadiləsi aparılacaq. Bu sessiyada insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, müvafiq profilli QHT-lərlə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri də gündəlikdə durur. Komitə üzvləri eyni zamanda məişət zorakılığının qarşısının alınması ilə bağlı maarifləndirilmə tədbirlərinin həyata keçirilməsi, rəqəmsal məkanda ölkə vətəndaşlarının hüquqlarının qorunması ilə bağlı layihələrin hazırlanmasında da fəal iştirak edəcəklər.

İclasda komitə üzvləri Hikmət Məmmədov, Tahir Kərimli, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Naqif Həmzəyev, Elşad Mirbəşiroğlu, Jalə Əhmədova, Razi Nurullayev, Elman Nəsirov, Tural Gəncəliyev, parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid, şöbənin İnsan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqov çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini söyləyiblər, təkliflərini veriblər.

Onlayn iclasın sonunda komitə sədri Zahid Oruc müzakirələrdə səsləndirilən məsələlərə öz münasibətini bildirib.

## Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin payız sessiyası üçün iş planı təsdiqlənib

Sentyabrın 21-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli əvvəlcə cari ilin yaz və növbədənkənar sessiyaları dövründə bu komitədə görülmüş işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə İctimai birliklər və dini qurumlar komitəsinin 5 iclası keçirilib, 12 məsələyə baxılıb. Komitədə müzakirə olunan qanun layihələri parlamentin plenar iclaslarına tövsiyə olunub və Milli Məclisdə qəbul edilib.

Yaz və növbədənkənar sessiyalarda komitədə müzakirə olunan qanun layihələrindən biri də "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə" məsələ olub. Dövlətin, vətəndaşların və dini qurumların bu sahədə hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirən həmin qanun layihəsi videokonfrans formatında Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birgə, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin iştirakı ilə üç oxunuşda geniş müzakirədən keçib və parlamentdə qəbul olunub. Qanuna edilən dəyişikliklər dini etiqad azadlığının həyata keçirilməsi üçün daha münbit şərait yaratmaq, qanunun tələblərinə riayət olunmasına nəzarəti səmərəli təşkil etmək, dini etiqad sahəsində maarifləndirmə işi aparmaq, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə kömək etmək məqsədi daşıyıb.

İclasda vitse-spiker nəzərə çatdırıb ki, 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan 152 ərizə və məktuba, müxtəlif xarakterli digər sənədlərə, elektron poçt vasitəsilə gələn müraciətlərə komitədə baxılıb və tədbir görülməsi üçün aidiyyəti təşkilatlara göndərilib. Ərizələrin əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla telefon əlaqəsi saxlanılıb, bir sıra məsələlərin həllinə nail olunub. Vətəndaşların fərdi qəbuluna da komitədə xüsusi diqqət ayrılıb, onların şifahi müraciətləri mütəmadi olaraq dinlənilib, lazımi izahatlar verilib, müvafiq tədbirlər görülüb.

Komitə sədrinin məlumatı dinlənildikdən sonra iclasda hesabatla bağlı fikir mübadiləsi aparılıb və hesabat məqbul sayılıb.

Sonra İctimai birliklər və dini qurumlar komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı müzakirə olunaraq təsdiqlənib.

Cari məsələlərin müzakirəsində deputatların təklifləri dinlənilib.

İclasda aparılan müzakirələr zamanı altıncı çağırış Azərbaycan parlamentinin öz işini yeni reallığa uyğun qurduğu qeyd olunub, ölkəmiz üçün ictimai-siyasi əhəmiyyət daşıyan məsələlərə də toxunulub. Milli Məclis sədrinin müavini, komitənin sədri Fəzail İbrahimli, komitə sədrinin müavini Sahib Alıyev, deputatlar Cavanşir Paşazadə, Azər Badamov, Ceyhun Məmmədov 44 günlük Vətən müharibəsində 30 illik işğala son qoyan Qələbənin ildönümü ərəfəsində olduğumuzu vurğulayaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı bu möhtəşəm Qələbənin geniş miqyasda təbliğ olunması zərurətindən danışıblar.

İclasda komitə üzvləri Sevinc Fətəliyeva və Anar İsgəndərov, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid iştirak ediblər.

# Vətən müharibəsi bəzi beynəlxalq təşkilatların münaqişəni dondurmaq səylərini fiaskoya uğratdı

**44 günlük Vətən müharibəsi zamanı qazanılan möhtəşəm qələbə xalqımızın ruhunun ifadəsi idi.**



Biz, keçmiş məcburi köçkünlər, bu günü 30 il idi gözləyirdik. Torpaqlarımızın düşməndən azad ediləcəyinə zərrə qədər də şübhəmiz olmayıb. Bizdə bu inamı qoruyub saxlayan dövlətimizin ildən-ilə qüdrətlənməsi, dövlət başçısı cənab İlham Əliyevin dəmir iradəsi idi.

Dövlət başçısı həmişə bəyan edirdi ki, münaqişə hərtərəfli həll olunmalıdır. Münaqişə yarımçıq həll oluna bilməz. Münaqişənin həlli ilə məşğul olan beynəlxalq təşkilatların isə istəyi bu idi ki, status-kvo əbədi olaraq qorunub saxlanılsın. Mən uzun illər çalışdığım diplomatik işlərdə, sonradan icma rəhbəri kimi keçirdyim bütün görüşlərdə bunu aydın görürdüm.

Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üçün ATƏT-in Minsk Qrupu 29 il ərzində məsələnin həllinə yox, dondurulmasına çalışdı. İllər ərzində aparılan danışıqlar nəticəsiz qaldı. Həm işğalçıya, həm də işğala məruz qalan tərəfə eyni münasibət bəslənilməsi, beynəlxalq qətnamələrin icra olunmaması bu təşkilatların məsələlərə ikili standartlardan yanaşmasından xəbər verirdi. Azərbaycan isə əksinə, həmişə məsuliyyətli ölkə olaraq daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışdı. Bütün bu illər ərzində BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Lakin Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyəti dövründə daim xalqımızın maraqlarından çıxış edərək bir addım belə geri çəkilmədi. 44 günlük Vətən müharibəsində qazanılan qələbə beynəlxalq təşkilatların münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq səylərini fiaskoya uğratdı.

Hesab edirik ki, beynəlxalq ictimaiyyət həlli uzanan münaqişələrdən nəticə çıxarmalıdır. Ədalət öz yerini tapmayanda silahlar işə düşür.

Münaqişənin həlli ilə bağlı Azərbaycan cəmiyyətində həmişə bir fikir hakim olub: düşmən torpaqlarımızdan çıxarılmalıdır. Artıq münaqişə həll olunub. Azərbaycan Ordusunun qəhrəmanlığı, Azərbaycanın dövlət başçısının dəmir iradəsi, dəmir yumruğu ilə. Biz təkcə müharibəni udmamışıq, həm də Ermənistan ordusunun 80 faizini məhv etmişik. Biz torpaqlarımızı düşmənlərdən azad etmişik. Bu qələbə həm də 200 il ərzində silsilə şəklində ərazilərimizin itirilməsinə bir son deməkdir.

Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir. Məhz bu effektiv hərbi strategiya və ordumuzun gücü düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq savaşında Zəfər çaldı. Bu Zəfər sayəsində guya "Ermənistanın güclü ordusu var", "erməni xalqı döyüşkən xalqdır", "Azərbaycan xalqı döyüşə bilmir" kimi miflərə birdəfəlik son qoyuldu.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Hər zaman xalqın dəstəyinə arxalanan İlham Əliyev hərbi sahədə olduğu kimi, diplomatik və informasiya savaşında da misilsiz rəşadət göstərdi.

Azərbaycana qarşı informasiya blokadasının yarılmasında cənab Prezidentin misilsiz xidməti var. Həm müharibənin gedişi, həm də müharibədən sonra onlarca aparıcı xarici KİV-ə müsahibələr verməklə cənab Prezident informasiya cəbhəsində istiqamətləri dəyişdi. Bu müsahibələrin hər biri Azərbaycanın diplomatik uğurudur.

***Tural GƏNCƏLİYEV,***
***Milli Məclisin deputatı***

# "Doing Business"in saxtakarlığından Azərbaycan yalnız ziyan çəkmişdir

## Ölkəmizin hesabatdakı reytinqi bu səbəbdən 6 pillə aşağı düşmüşdür

Dünya Bankının "Doing Business"in hesabatlarında üzə çıxardığı qeyri-dəqiqliklər ətrafında səs-küy və diskussiyalar davam edir.



Milli Məclisin deputatı Azər Badamov hesab edir ki, "Doing Business" hesabatının reytinq sıralaması ölkələrdə biznes və investisiya mühitinin əlverişliliyi, o cümlədən dünya iqtisadiyyatındakı mövcud vəziyyətin müəyyənləşdirilməsində böyük rol oynayırdı: "Lakin 2020-ci ilin reytinq hesabatının hazırlanmasındakı qərəz və maraqlara xidmət faktlarının üzə çıxması xoşagələn hal deyil".

Milli Məclisin deputatı "Doing Business 2020" hesabatı hazırlanarkən S.Dyankovun özbaşına bir sıra islahatların nəticələrini nəzərə almaqdan imtina etməsini Azərbaycana qarşı qərəzli münasibətin göstəricisi kimi dəyərləndirmişdir. A.Badamov eyni zamanda sözügedən məsələnin şərhində radikal mövqe sərgiləyərək hakimiyyəti tənqid atəşinə tutanları qınamışdır: "Təqdim olunan yalan məlumatlar əsasında Azərbaycanın reytinqi Çin, BƏƏ və Səudiyyə Ərəbistanının reytinqləri kimi yaxşılaşmamış, əksinə, geriləmişdir. Dünya Bankının açıqlamasında da radikal müxalifətin qeyd etdiyi kimi, Azərbaycan hakimiyyətinin hər hansı bir yalanından danışılmır. Əksinə, Azərbaycana qarşı saxtalaşdırma olduğu üzə çıxır".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) də ölkəmizin nüfuzlu analitik qurumlarından biri kimi bu hadisəni diqqətdən kənarda qoymamışdır. İİTKM-in yaydığı şərhdə qeyd olunur ki, Dünya Bankı hələ 2020-ci il 27 avqust tarixli press-relizində "Doing Business"in hesabatında nəticələrin saxtalaşdırıldığını əsas gətirərək bu hesabatın nəşrinin təxirə salındığını bildirmişdir: "Öz yüksək daxili etik dəyərlərinə əsaslanaraq Dünya Bankı hesabatlardakı yanlışlıqların aradan qaldırılması məqsədilə kənar audit şirkəti (WilmerHale) də cəlb edərək son 5 ilin sistematik həm daxili, həm də xarici audit qiymətləndirilməsini aparmışdır".

Şərhdə daha sonra qeyd olunur ki, əgər Dünya Bankı tərəfindən 2020-ci il üzrə hesabatda nəticələr saxtalaşdırılmasaydı, Çin 7, Səudiyyə Ərəbistanı 1 pillə geri mövqedə, BƏƏ olduğu mövqedə, Azərbaycan isə 6 pillə daha ön reytinqdə qərarlaşacaqdı. Yəni audit yoxlamalarının nəticəsi olaraq hazırlanmış hesabatda düzəlişlər edildikdən sonra Azərbaycanın göstəricisi 6 pillə artmaqla, 34-dən 28-ci mövqeyə yüksələcəkdi.

İİTKM-in şərhində bildirilir ki, "Röyter" agentliyi və "Kommersant" kimi aparıcı mətbu orqan da Azərbaycanda aparılan islahatların "Doing Business" hesabatlarında qərəzli şəkildə nəzərə alınmadığından yazmışdır. Burada xüsusi ilə qeyd etmək lazımdır ki, nəticələrin hesabatda doğru əks olunmadığı bildirilən 4 ölkə (Səudiyyə Ərəbistanı, BƏƏ, Çin və Azərbaycan) arasında yeganə Azərbaycanın göstəriciləri qurumun bəzi ekspertləri tərəfindən süni şəkildə azaldılmışdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dövlət Nəzarəti İnformasiya Sistemi fəaliyyətə başlayıb

Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün yeni elektron informasiya sisteminin yaradılması və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Dövlət Nəzarəti İnformasiya Sisteminin yaradılması haqqında" 2021-ci il 30 yanvar tarixli 1275 nömrəli fərman imzalanmışdır.

AZƏRTAC xəbər verir ki, fərmana uyğun olaraq artıq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bütün sahələr üzrə imzalanmış fərman və sərəncamların, o cümlədən verilmiş digər tapşırıqların vaxtında və tam şəkildə icrasına nəzarətin gücləndirilməsini təmin edəcək yeni elektron sistem yaradılıb. Yeni sistem vasitəsilə bütün tapşırıqların icrasına nəzarətin elektron formada təşkili, hesabatvermənin sadələşdirilməsi, icrası gecikən tapşırıqlar üzrə problemlərin müəyyən edilərək aidiyyəti tədbirlərin görülməsi və onların aradan qaldırılması, nəticə etibarilə yerinə yetirilən işlərin əsaslı qiymətləndirilməsi mümkün olacaq.

Hazırda bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət şirkətləri, publik hüquqi şəxslər yeni yaradılmış Dövlət Nəzarəti İnformasiya Sisteminə qoşulub. Ötən dövrdə onlara sistemdən istifadə ilə bağlı təlimlər keçirilib. Artıq 2021-ci il üzrə icraya nəzarət yeni sistem üzərindən onlayn qaydada həyata keçirilir.

Eyni zamanda sistem vasitəsilə ölkənin rayonlarının müxtəlif sahələr üzrə cari vəziyyəti və inkişafını xarakterizə edən meyarlar əsasında hazırlanmış əsas səmərəlilik göstəricilərinin tətbiqi ilə qiymətləndirilməsi aparılır. Qiymətləndirmə nəticəsində regionların inkişaf meyilləri, nəzərdə tutulan prioritet istiqamətlərdə işlərin yerinə yetirilməsi vəziyyəti, aktual problemlərin vaxtında aşkar edilməsi və inkişaf üzrə rayonlararası rəqabət mühitinin formalaşdırılması mümkün olacaqdır.

Dövlət Nəzarəti İnformasiya Sisteminin fəaliyyətə başlaması ümumilikdə ölkə üzrə yuxarıda qeyd edilən istiqamətləri əhatə edən mərkəzləşdirilmiş məlumat bazasının yaradılması və idarə olunması, obyektiv və nəticəyönümlü hesabatlılığın təşkilini təmin edəcəkdir.

Bununla yanaşı, göstərilən çərçivədə yerinə yetiriləcək tədbirlərin nəticəsi ölkə rəhbərliyi tərəfindən həyata keçirilən islahatların sürətləndirilməsi, prioritet sahələr üzrə hədəflərin düzgün müəyyənləşdirilməsi və onlara nail olunma dərəcəsinin ölçülməsi, həmçinin icra edilən işlərin səmərəliliyinin artırılmasında mühüm rol oynayacaqdır.

# İndiyədək "YAŞAT" Fondu tərəfindən 132 qazimiz müalicə üçün Türkiyəyə göndərilib

**Bu günə qədər "YAŞAT" Fondu tərəfindən 132 qazimiz müalicə üçün Türkiyəyə göndərilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, onlardan 88-nin müalicə proseduru uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

# «Üç qardaş-2021» beynəlxalq təliminin təntənəli bağlanış mərasimi keçirilib





*Əvvəli 1-ci səh.*





İştirakçı ölkələrin dövlət himnləri ifa olunduqdan sonra general-leytenant Hikmət Mirzəyev qonaqlara və şəxsi heyətə müraciət edərək bildirib: "Təlimdə iştirakçılar yüksək bacarıq nümayiş etdirərək tapşırıqları uğurla yerinə yetirdilər. Əminəm ki, təlimlər zamanı bacarıqlarınızın artırılması ilə yanaşı, peşəkar həyatınız üçün çox faydalı olan fikir və təcrübə mübadiləsi imkanı əldə etdiniz. Birgə təlimlər xalqlarımız arasındakı dostluğun, ölkələrimiz arasında sıx əməkdaşlığın bir nümunəsidir. Təlim döyüş sahəsində üç qardaş ölkənin hərbçilərinin bir yerdə olması, çiyin-çiyinə tapşırıq yerinə yetirməsi hər birimizi qürurlandırdı".

Təlim iştirakçılarını salamlayan Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin komandanı, general-leytenant Ömer Ertuğrul Erbakan "Üç qardaş-2021" təliminin uğurla tamamlandığını böyük qürur hissi ilə vurğulayıb: "Aramızda var olan qardaşlıq bağları çox güclü olub və bundan sonra daha da güclənəcək. Üç ölkənin xüsusi təyinatlıları arasındakı qarşılıqlı işbirliyi, təhsil və təlim fəaliyyətləri bundan sonra da davam edəcək". Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Təhlükəsizlik və Antiterror İdarəsinin rəisi, general-mayor Mümtaz Hüseyn isə qeyd edib: "Çiyin-çiyinə dayanan Azərbaycan, Türkiyə və Pakistandan olan xüsusi təyinatlı qardaşlar arasında icra edilən birgə təlimin şahidi olmaq mənim üçün həqiqətən böyük şərəf və qürurdur. Təlim zamanı xüsusi təyinatlılar tərəfindən nümayiş olunan peşəkarlıq təqdirəlayiqdir. "Üç qardaş-2021" təliminin həyata keçirilməsi üçün qarşıya qoyulan məqsədlərə nail olunub. Bu da bütün iştirakçıların peşəkarlıq səviyyəsinin artırılmasına töhfəsini verəcək".

Çıxışlardan sonra təlim iştirakçılarına xatirə hədiyyələri təqdim edilib və onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

"Üç qardaş-2021" beynəlxalq təliminin bağlanışına həsr olunan təntənəli mərasimin rəsmi hissəsi başa çatdıqdan sonra Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanan "Bu gün bir yerdəyik, sabah da bir yerdə olacağıq!" adlı teatrlaşdırılmış mədəni proqram təqdim edilib.

# Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarının ekoloji bərpası istiqamətində işlər aparılır

Sentyabrın 21-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında ətraf mühitin və təbii sərvətlərin vəziyyəti" mövzusunda Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, brifinqdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev, fotojurnalist və tədqiqatçı Reza Deqqəti, Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya Departamentinin müdiri Aybəniz İsmayılova, IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, su üzrə mütəxəssis, "Sağlam həyata doğru" Ekoloji İctimai Birliyin sədri Rövşən Abbasov iştirak edərək təqdimatlar ediblər.

Azərbaycandakı diplomatik korpusun 70-dən çox nümayəndəsinin iştirak etdiyi brifinqdə çıxış edən nazir müavini Vüqar Kərimov Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında Ermənistan tərəfindən törədilmiş ekoloji cinayətlərdən bəhs edərək ətraf mühitə vurulan zərərlər barədə iştirakçıları məlumatlandırıb və ərazilərin ekoloji bərpası istiqamətində işlərin aparıldığını bildirib. Nazir müavini tədbirdə iştirak edən Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinə təmsil etdikləri ölkələrin hökumət və vətəndaş cəmiyyəti institutlarını Şərqi Zəngəzur və Qarabağın təbiətinin qiymətləndirilməsi və bərpası istiqamətində həyata keçiriləcək layihələrdə yaxından iştirak etməyə dəvət edib.

Brifinqdə beynəlxalq fotojurnalist Reza Deqqətinin Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarına dair fotosərgisi də nümayiş etdirilib. Tədbirin sonunda iştirakçılara hədiyyə olaraq nazirliyin tinglik sahəsində yetişdirilmiş tinglər paylanılıb.

# Masallıda çəltik biçini gedir

## Bu il rayon üzrə 281 hektarda çəltik becərilib

- Dədə-babadan çəltik əkib-becərməklə məşğul olmuşuq, onunla dolanmışıq. Lazımi qədərini ruzi kimi götürdükdən sonra qalanını satıb dərdimizə-sərimizə məsrəf etmişik. Yanımdakı bu cavan, cüssəli oğlan nəvəm Elmidardır. 90-cı illərdə onun anasının və digər uşaqlarımın toyunu düyü ilə yola vermişəm.



- Zakir kişi, eşitmişəm, sovetlər zamanı çəltik əkib-becərməyə imkan verilməyib, - deyə soruşuram.

- Düzdür, ona görə ki, onda Moskvaya, Rusiyanın digər şəhərlərinə tərəvəz lazım idi. Həmin məqsədlə bu ərazilərdə pomidor, xiyar, bibər, digər tərəvəzlər yetişdirilirdi.

Buna baxmayaraq, bəzi adamlar öz həyətyanı sahələrində çəltik əkirdilər. SSRİ dağıldıqdan, torpaqlar kəndlilərə, yəni əsl sahiblərinə verildikdən sonra sərbəstlik yarandı. Adamlar pay torpaqlarında istədikləri kənd təsərrüfatı məhsullarını yetişdirməyə başladılar. Mən və iki oğlum, demək olar ki, hər il çəltik əkirik. Keçən il əkdiyim 2 hektarın hər birindən 45 sentner məhsul götürdüm. Satışında da heç bir problemlə qarşılaşmadım. Alıcı gəlib qapımdan hamısını götürüb apardı. Bu il isə 3,5 hektarda çəltik əkmişəm. Düzdür, suvarma zamanı müəyyən çətinliklə qarşılaşdıq. Allahın evi abadan, bu il də məhsulumuz bol, üzümüz ağdır. Nəvələrim Sahib və Sahil də nəslin peşə vərdişini davam etdirirlər. Onlar keçən il yüksək nəticə əldə etdilər: 1,5 hektardan 7 ton çəltik götürdülər ki, bu da hər hektardan təqribən 46,7 sentner məhsul deməkdir. Bu il onlar həmin rəqəmi 10 tona çatdırmaq fikrindədirlər.

Sahənin kənarında bu barədə söhbət edərkən torpaq mülkiyyətçisi Zakir Xanmədovun nəvəsi Elmidar babasına deyir:

- Kombayn odur, dəmir yolunun keçidini aşdı.

Z. Xanmədov:

- Hə, mən də gördüm, uzağı 10 dəqiqəyə gəlib çatar.

Öyrənirəm ki, Zakir kişi çox vaxt "Apollo" sortu əkir. Bu sort 100 günə yetişir.

Kombayn sahənin kənarında dayanır. Onu idarə edən Yaşar İmanov kabinədən düşüb bizə yaxınlaşır, görüşüb hal-əhval tutur.

Z. Xanmədov:

- Bacarıqlı, işgüzar adamdır, - deyir, - hər il mənim çəltiyimi biçir.

Birlikdə sahəni nəzərdən keçirirlər. Sonra kombaynçı kabinəyə qalxıb mühərriki işə salır. İrəlilədikcə biçdiyi sahənin çəltiyini döyüb bunkerə ötürür. Mülkiyyətçi Zakir kişinin üzü gülür. Necə də sevinməsin?! Aylardan bəri gözlədiyi gün gəlib çatmışdır.

Beləcə, çəltik istehsalı Masallıda ildən-ilə artır. Bu isə öz növbəsində kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlara göstərilən qayğıkeşliyə, diqqətə cavabdır. Nəticədə düyü idxalı azalır, xaricə valyuta axınının qarşısı alınır, eyni zamanda əhali ekoloji cəhətdən daha sağlam hesab olunan yerli məhsulla təmin edilir.

Çəltiyin əkilib-becərilməsində mütərəqqi texnika və texnologiyanın tətbiqi istehsalçıların işini xeyli asanlaşdırmışdır. Bu ilin aprel ayında 64 fermer bağladıqları müqaviləyə əsasən 281 hektarda çəltik əkmişlər. Hazırda rayonda Koreya və Polşa istehsalı olan 6 çəltikyığan kombayn var. Onu da qeyd etmək lazımdır ki, istehsalçılar 5-6 il bundan öncə yetişdirdikləri çəltiyi döymək, ondan düyü almaq üçün Lənkəran və ya Astara rayonlarına getməli olurdular. İndi isə Masallı şəhərində xarici avadanlıqlar quraşdırılmış xüsusi zavod fəaliyyət göstərir. Müəssisə çəltiyi götürüb qurudur, döyür və təmizləyərək sahibinə təhvil verir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



## Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



# İlham Əliyev Zəfərinin Şuşa təntənəsi

*Əvvəli 1-ci səh.*

Elə buna görədir ki, tarixboyu düşmənlərin gözdağına çevrilib, daim ona sahib olmaq istəyənlərin sayı çox olub. Amma bu qədim və qəhrəman şəhər Qacar zülmünü də diz altına gətirib, 1905-ci il erməni daşnaklarının azğınlığının da qarşısını alıb. 2020-ci ilin 8 noyabrında isə müzəffər sərkərdə İlham Əliyevin "dəmir yumruğ"una çevrilən qəhrəman Azərbaycan oğullarının qətiyyəti və hünəri sayəsində mənfur düşməni diz çökdürüb, qarşısında baş əyməyə məcbur edib.

Bir daha başa salıb ki, Pənahəli xanın, Mehdiqulu xanın, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Firudin bəy Köçərlinin, Əhməd Ağaoğlunun və daha sadalamadığımız minlərlə dahi xadimin yoğrulduğu bu müqəddəs torpaqda qorxaq, məkrli, işğalçı erməni at oynada bilməz!

Qarabağ da, Şuşa da hər zaman Azərbaycanın olub və bundan sonra min illər keçsə də, belə olacaq...

### Abidələr şəhəri

Şuşa həm də tarixi irsimizin daş yaddaşını özündə yaşadan şəhər olub. Vaxtilə Ulu Öndər Heydər Əliyevin abidələr şəhəri adlandırdığı bu qədim qalada 300 tarixi abidə, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa olunmuş qala divarları olub. Şuşada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi, haqlı olaraq, şəhərin mədəniyyətimizin ən zəngin beşiyi adlandırılmasının səbəbidir. Şuşada hər bir ev, küçə, möhtəşəm qala divarları, məscidlər, hündür minarələr, əzəmətli qəsrlərin qalıqları keçmişimizdən xəbər verir.

Bu bənzərsiz xanzadə şəhərin həm də adına yaraşan yaşam tərzi olub. Şuşa təkcə təbii gözəlliyi ilə deyil, kübar cəmiyyəti, mədəni mühiti, yüksək təhsilli ziyalıların olması ilə də fərqlənirdi. XIX əsrin əvvəllərində Qarabağın ən qədim məktəbinin təməli məhz Şuşada qoyulmuşdu.

### Gözəl ənənələr bərpa edildi

Şuşa həm də mədəni mühitimizin, musiqi, poeziya festivallarının baş ünvanı idi. Lakin 30 ilə yaxın bir zaman idi ki, Şuşanın o çal-çağırlı günləri də sovulub getmişdi. Amma bu 2020-ci ilin 8 noyabrına qədər çəkdi...

Şanlı qələbədən çox qısa zaman sonra, 2021-ci ilin 14 yanvarında isə Şuşa işğaldan azad olunandan sonra ikinci bayramını yaşadı və "Zəfər yolu" ilə gələn əzizlərinə sevinclə qucaq açdı...

Həmin tarixdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşaya qalibiyyət səfəri etməsi və məhz bu doğma diyara Şuşanın əbədi sakinləri - qələbəmizin rəmzi Natəvanın, Üzeyir bəyin və Bülbülün büstləri ilə qayıtması Şuşanın bayram günlərinin başlanğıcı oldu.

Bu il mayın 7-də Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən Prezident İlham Əliyev düz 5 gündən sonra Şuşaya səfər etdi və möhtəşəm "Xarıbülbül" festivalından bütün Azərbaycan xalqını salamladı. Bu günü ölkəmizin tarixində əlamətdar gün kimi dəyərləndirən Prezident çıxışı zamanı vurğuladı ki, biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq: "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir".

"Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək" - söyləyən İlham Əliyev xüsusilə vurğuladı ki, ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər: "Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".

İlk dəfə Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb.

Həmin ilin mayında, Şuşada xarıbülbülün çiçəklənmə dövründə Cıdır düzündə keçirilən festivalda yerli ifaçılarla yanaşı, Qırğızıstan, Qazaxıstan, Başqırdıstan, Litva və Belarusdan da musiqi qrupları iştirak edib.

Şuşada füsunkar gözəlliyi ilə seçilən Cıdır düzündə 1992-ci ilədək hər il may ayında keçirilən "Xarıbülbül" Musiqi Festivalı əhəmiyyətinə, səviyyəsinə, rəngarəngliyinə görə nəinki Azərbaycanda, bütün keçmiş sovet məkanında, hətta dünya miqyasında belə möhtəşəm mədəniyyət tədbirlərindən biri sayılırdı.

Artıq Şuşada başlayan yeni həyatla birlikdə, bu məşhur tarixi festival da əvvəlki təntənəsinə qovuşdu. İllərdən sonra Şuşa şəhərində 2021-ci il mayın 12-si və 13-də ilk dəfə "Xarıbülbül" festivalı düzənləndi. Tədbirdə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivləri çıxış etdilər, xalq və klassik musiqi nümunələrindən ibarət proqram təqdim olundu.

"Xarıbülbül" festivalında Azərbaycan xalqı bir daha bütün dünyaya öz birliyini nümayiş etdirdi.



### "Demişdim ki, Şuşanı biz dirçəldəcəyik"

Şuşa həm də tarixən ədəbi simaların xatirə gecələrinə, poeziya günlərinə evsahibliyi edib. Bu möhtəşəm tarixi günlərdən biri isə, ilk dəfə Ulu Öndərin təşəbbüsü ilə gerçəkləşdirilən "Vaqif Poeziya Günləri" olub.

1982-ci ilin 14 yanvarında Ulu Öndər Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya evinin təntənəli açılışını etmiş, eyni zamanda, "Vaqif Poeziya Günləri"nin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada "Vaqif Poeziya Günləri" keçirilmişdi.

Bu sənət bayramı həmin vaxtdan 1991-ci ilədək hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı. Ədəbiyyatsevərlər arasında böyük maraqla qarşılanan bu günlər çərçivəsində şeir gecələri ilə yanaşı, konsert proqramları da təqdim edilərdi.

İllərdən sonra qürurlu Qarabağ Zəfərimiz Şuşada ənənəvi şeir bayramımız olan "Vaqif Poeziya Günləri"nin də bərpasına rəvac verərək sənətsevərlərin, ümumilikdə Azərbaycan xalqının sevincinə səbəb olub.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və mənfur erməni qəsbkarlarının işğalçılıq siyasəti nəticəsində yarımçıq qalan mədəni tədbirlərimizdən olan "Vaqif Poeziya Günləri" 2021-ci ilin 30 avqustunda yenidən Şuşada keçirildi.

Azərbaycan Prezidenti Şuşada Vaqifin bərpa edilmiş məqbərəsi önündə qeyd olunan poeziya günündə çıxışı zamanı bir daha vurğuladı ki, noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir: "Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik..."

### Şuşanın dağlarından bütün Qarabağa, Azərbaycana, dünyaya yayılan səda...

Azərbaycan musiqisinin beşiyi, konservatoriyası da elə Şuşadır. Bu şəhərdə böyüyüb, boya-başa çatan çox az adam tapılar ki, musiqinin hansısa bir sahəsi ilə məşğul olmasın. Bu diyar çox görkəmli bəstəkarlar, tarzənlər, muğam ifaçıları yetişdirib. Şuşa, həm də Azərbaycan professional musiqisinin, milli bəstəkarlıq məktəbinin, ilk milli opera və operettanın yaradıcısı, eləcə də mədəniyyət tariximizin qızıl səhifələrini təşkil edən bir çox ilklərin müəllifi Üzeyir bəy Hacıbəylinin doğma vətənidir. Dahi bəstəkarın doğum günü - 18 sentyabr ölkəmizdə hər il Milli Musiqi Günü kimi qeyd olunur.

1995-ci il sentyabrın 18-də dahi bəstəkarın anadan olmasının 110-cu ildönümündə Ulu Öndər Heydər Əliyev bu musiqi bayramı ("Üzeyir Musiqi Günü") haqqında fərman imzalayıb, 2009-cu ildə isə dahi bəstəkarın adına Beynəlxalq Musiqi Festivalının əsası qoyulub. Bu festival hər il sentyabrın 18-də müxtəlif ölkələrdən musiqi kollektivlərini, ifaçıları, dirijorları, musiqişünasları bir araya gətirərək əsl musiqi bayramı kimi qeyd olunub.

2021-ci ilin 18 sentyabrında isə, Milli Musiqi Günü Üzeyir bəyin doğma şəhərində - Azərbaycan mədəniyyətinin paytaxtı Şuşada, elə dahi bəstəkarın heykəlinin yerləşdiyi parkda təntənəli şəkildə qeyd olundu. Bu tədbirdə Üzeyir bəyin düz 85 il əvvəl yaratdığı Fikrət Əmirov adına Mahnı və Rəqs Ansamblı da çıxış etdi. Ölkənin aparıcı sənətkarları, xalq və əməkdar artistləri, tanınmış ifaçıları bu musiqi bayramında Üzeyir bəyin yazıb yaratdığı və milli musiqimizin xəzinəsi sayılan əsərlərini ifa etdilər.

Şuşadan, Üzeyir bəy nəfəsindən, ruhundan qanadlanan möhtəşəm əsərlərin sədası Şuşanın dağlarından bütün Qarabağa, Azərbaycana, dünyaya yayıldı...

Bəli, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə Qarabağda tarixi ənənənlərimizin, mədəni tədbirlərimizin də bərpasına rəvac verib. Bu gün bütün Qarabağ quruculuq meydanına, Şuşa isə mədəniyyətimizin mərkəzinə çevrilib...

Qarşıda isə Şuşada bizi daha bir möhtəşəm bayram gözləyir: gələn il biz Qarabağın büllur qəsri Şuşanın 270 illiyini böyük zəfər coşqusu, təntənə ilə qeyd edəcəyik...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dahi bəstəkar Üzeyir bəy

**Xalqın qələbəsini simvollaşdıran konkret tarixi anlar olur. Qərinələr, əsrlər keçsə də, həmin anlar hər zaman xatırlanır və qələbəni xatırladır. 44 günlük Vətən müharibəsini də tarixiləşdirən belə anlar çox oldu. Rəşadətli ordumuzun gücü ilə torpaqlarımızı erməni işğalçılarından təmizləyən Azərbaycan Respublikası Prezidentinin qətiyyətli çıxışları, azad edilmiş yurdlarımızda üçrəngli bayrağımızın ucaldılması, insanlarımızın qələbə coşqusu. Bakıda keçirilən Zəfər paradı, gözəl Şuşamızda böyük təntənə ilə baş tutan "Xarıbülbül" festivalı, "Vaqif Poeziya Günləri"... Bunların hər biri bizim üçün xoş və unudulmaz anlar, məqamlardır.**

Bu günlər isə dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin xatirəsinə ehtiram nümunəsi kimi azad Şuşamızda, Cıdır düzündə Milli Musiqi bayramı qeyd edilir. Qüdrətli sənətkar Üzeyir bəyin xatirəsi sevgi ilə anılır. Onun əbədi irsi ən qiymətli mənəvi yadigarımız kimi nəsillərdən-nəsillərə ötürülür.

Builki musiqi gününün hüsnü isə bir başqadır. Üzeyir bəyin boya-başa çatdığı, musiqinin sehrinə düşdüyü, yaradıcı ruhunun göylərə yüksəldiyi Şuşa şəhəri azaddır. Unudulmaz bəstəkarımızın erməni vandallarının gülləleri ilə yaralanmış büstü artıq əvvəlki yerində - Şuşadadır. Xan qızı Natəvanla, Bülbüllə yanaşı, Şuşanın azad günlərinə sevinir. Onların illərlə Qafqazın musiqi beşiyinin səmasında dolaşan nigaran ruhları artıq rahatdır. Bu gözəl məkandan eşidilən Azərbaycan musiqiləri böyük şəxsiyyətlərin ruhlarını şad edir. Azad Şuşada azad musiqi sədaları bütün dünyaya səs salır, tarixin yaddaşına yeni səhifələr yazır. Bütün bunlar 2021-ci ilin Milli Musiqi Gününə dəyər qatan möhtəşəm faktlardır.

### İşıqlı səhifələr

Bütün dövrlərdə dahi sənətkarların həyatı və yaradıcılığı, zəngin irsi insanların daim diqqət mərkəzində olur, onların ölməz əsərləri müasirlərini düşündürür, ictimaiyyət arasında müxtəlif fikirlər oyadır və bu diqqəti, bu marağı zəmanənin heç bir axarı nə poza, nə də dəyişə bilir. Bu baxımdan dahi bəstəkar Üzeyir bəy Hacıbəyli Azərbaycan incəsənəti və mədəniyyəti tarixində nadir simalardandır. O, müasir Azərbaycan professional musiqi sənətinin və operasının banisidir. 45 ildən artıq bir müddətdə yorulmadan milli musiqimizi inkişaf etdirmiş, onun nəzəri əsaslarını yaratmış, müasir ruhlu kadrlar yetişdirmiş, həm də bunu böyük vüsət və parlaqlıqla etmişdir. Onun yaşam tərzi, yaratdıqları indinin özündə də hamını valeh edir.

Üzeyir bəy illərin sərt sınağından, sosial sinfi ziddiyyətlərin kəskinləşdiyi dövrlərdən, ictimai-siyasi maneələrdən keçərək əbədiyaşarlıq qazanmış şəxsiyyətlərdəndir. Sənətin bir çox sahələrində silinməz izlər qoyan dahi bəstəkarın yaradıcılığı nəinki zamanın ruhunu, fikri mübarizəsini, eyni vaxtda estetik tələblərini, zövqünü, bədii düşüncəsini əks etdirir. Onun sənətinin dərinliyi, dolğunluğu isə bitkin bədii üslubda ifadə olunur. Bu üslub isə insanların mənəvi ehtiyaclarına cavab verir, onları təsiri altına alır, irəli aparır, daim ucaldır, yüksəldir... Ona görə də Üzeyir bəyin zəngin irsi Azərbaycan xalqının mədəni sərvətinə çevrilib. Əsərləri dünya musiqi incisinin nümunələri hesab olunur. O, Azərbaycanın himninin müəllifi, ilk milli operanın yaradıcısıdır.

### "Leyli və Məcnun"

1908-ci ilin yanvarında Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası bütün müsəlman Şərqində opera sənətinin bünövrəsinə çevrilir. Özü xatirələrində qeyd edirdi ki, uşaqlıq dövründə, XIX əsrin sonlarında Əbdürrəhim bəy Haqverdiyev tərəfindən Şuşada təşkil edilmiş "Məcnun Leylinin məzarı üzərində" tamaşası onda böyük təəssürat yaradır. Tamaşada Məcnun rolunu o zaman məşhur xanəndə Cabbar Qaryağdı ifa edir, on üç yaşlı Üzeyir isə xanəndəni müşayiət edən oğlanlar xorunda çıxış edir. Əsas personajların partiyaları Füzuli poemasının müvafiq hissələrindən olan mətnlərlə oxunan muğam improvizasiyalarından ibarət idi, hadisələr isə qısa xor fraqmentləri, yəni həmin muğamlardan təsniflər vasitəsiylə şərh edilirdi. Ü.Hacıbəyli xatirələrində bildirirdi ki, şuşalıların tamaşası, onun ilk Azərbaycan operasını yaratmaq qərarını verməsində ciddi rol oynayır. O yazır: "Təxminən 1897-1898-ci illərdə... mən doğma şəhərim olan Şuşadakı həvəskar tamaşada "Məcnun Leylinin məzarı üzərində" səhnəsini gördüm və bu səhnə məni o qədər dərindən həyəcanlandırdı ki, ... opera yazmağa qərar verdim".

Klassik Azərbaycan ədəbiyyatının mövzularından və musiqi motivlərindən istifadə etməklə opera yazmaq ideyası Üzeyiri hələ Qori Seminariyasında oxuduğu vaxtlardan düşündürürdü. Tiflisdə gördüyü italyan operası - Coakkino Rossininin "Sevilya bərbəri" əsəri onu bu işə daha da həvəsləndirir.

1907-ci ildə Üzeyir bəy "Leyli və Məcnun" operasını yazır. Onun librettosu bəstəkarın özü və qardaşı Ceyhun bəy Hacıbəyli tərəfindən qələmə alınır. Məşqlər əvvəlcə Üzeyir bəy Hacıbəylinin evi və "İsmailiyyə" mehmanxanasında keçirilir. Sonra 1907-ci ilin axırıncı günlərindən etibarən Muxtarov, 115 ünvanında (keçmiş Persidskaya, 135) yerləşən Qasımovların böyük evinin üçüncü mərtəbəsindəki geniş zalda təşkil edilir.

"Leyli və Məcnun" operasının "Nicat" müsəlman maarif dərnəyi tərəfindən təşkil olunmuş ilk tamaşası 1908-ci ildə, H.Z.Tağıyevin Bakıda inşa etdirdiyi teatr binasında baş tutur. İlk səhnələşdirmənin rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhim bəy Haqverdiyev olur. Rollarda Hüseynqulu Sarabski (Məcnun), Əbdürrəhman Fərəcov (Leyli), C.Dağıstani (İbn Salam), Mirmahmud Kazımov (Məcnunun anası), Mirzə Muxtar (Əbülqeys, Məcnunun atası) və başqaları çıxış edirlər. Tarda solo partiyalar Qurban Pirimov və Şirin Axundov tərəfindən ifa olunur. İlk tamaşanın xoreoqrafı Bəhram Vəzirov, suflyoru A.Rzayev, məsul idarəçi isə Balabəy Aşurbəyov (Sara Aşurbəylinin atası) olur. Üzeyir bəy Hacıbəyov özü isə orkestrdə skripka partiyasını ifa edir.

Çox təəssüf ki, premyera problemsiz ötüşmür. Tamaşanın başlamasına iki saat qalmış skripkaçılardan ikisi gəlməyəcəyini xəbər verir. Hacıbəyli skripka musiqisinin bir hissəsini təcili dəyişməli olur, həmçinin bu alətdə ifa etmək üçün şəxsən orkestrə qoşulur. Dahi bəstəkarın operasına qarşı çıxanlar da olur. Bunlar, əsasən, yerli mollalar və konservativ ruhlu avtoritetlər - qoçular idi. Bəzi məlumatlara görə, premyeradan sonra H.Sarabskiyə hücum olunur. Sonradan 1930-cu ildə nəşr edilmiş xatirələrində Sarabski yazır ki, bu tamaşadan sonra çoxları məni Məcnun adlandırmağa başladılar: "Mən bu ada yüksək dəyər verir və onunla fəxr edirdim. Əvvəl mənə küçədə lağ edən xalq, indi hörmət və sevgi ilə qəbul edirdi..."

Operanın ilk səhnələşdirilməsində iştirak edənlər arasında çoxlu sayda qeyri-peşəkarlar var idi. Problem qadın rollarının ifaçıları ilə bağlı idi. Leyli rolunun ifaçısını tapmaq isə daha çətin məsələyə çevrilmişdi. O zaman şəriət qanunlarına görə, müsəlman qadınlara səhnədə ifa etməyə icazə verilmirdi. Ü.Hacıbəyli səhnəyə rus qadın ifaçı da çıxara bilməzdi, çünki bu zaman muğam partiyalarında problem yaranardı.

Üzeyir bəy ilk dəfə Əbdürrəhman Fərəcovu çayxanada görür və ifasını eşidir, bundan sonra onu teatra dəvət edir, Leyli rolunu ona tapşırır. Sarabski özünün "Qədim Bakı" kitabında Fərəcovu Leyli rolunun ifasına razılaşdırmağın nə qədər çətin olduğundan bəhs edərək yazır ki, ona qrimdən sonra heç kimin tanımayacağını söz verirlər. Lakin teatra qarşı olanların təhdidlərinə görə, ikinci tamaşada Ə. Fərəcov çıxışdan imtina edir. O zaman, Üzeyir bəyin qohumu və həmin illərdə Məcnun rolunu ifa edən Balabəy Bədəlbəyli, öz qardaşı Əhməd Ağdamskini Leyli rolunu ifa etmək üçün razı salır. Sonradan Ağdamski böyük bəstəkarın digər əsərlərində Əsli ("Əsli və Kərəm"), Gülnaz ("O olmasın, bu olsun"), Gülçöhrə ("Arşın mal alan"), Minnət xanım ("Ər və arvad"), Təhminə ("Rüstəm və Söhrab"), Xurşidbanu ("Şah Abbas və Xurşidbanu") kimi qadın rollarını da canlandırır. Leyli rolunu ifa edən ilk qadınlar isə səhnəyə yalnız 1920-ci illərin ortalarında çıxırlar.

"Leyli və Məcnun"dan sonra - 1909-1915-ci illərdə bəstəkar "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarını yazır.

### "Koroğlu"

1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası Üzeyir bəy Hacıbəyli yaradıcılığının zirvəsinə çevrilir. Bu opera həqiqətən Azərbaycan opera sənətinin nadir incilərindən olur. Burada bəstəkar ilk dəfə olaraq klassik opera formasına riayət etməklə yanaşı, bütün ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri və s. yaratmışdır. "Koroğlu"da yeniliklər çox idi. Bəstəkar simfonik orkestrin tərkibinə Azərbaycan xalq musiqi alətlərini daxil edərək ayrı-ayrı parçaların, ariyaların rəngarəng səslənməsinə nail olmuşdur.

"Koroğlu" ilə Ü.Hacıbəyli Azərbaycan musiqisində köklü dönüş yaratmış bir bəstəkar olduğunu sübut etdi. Bu bir həqiqətdir ki, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirdi. Bununla da o, Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirdi.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə "Arşın mal alan" və "Koroğlu" böyük marağa səbəb olur. SSRİ-nin rəhbəri İ.V.Stalin hər iki əsərə tamaşa edir və onlara yüksək qiymət verir. O, "Koroğlu"nu vaxtında yaradılmış opera kimi dəyərləndirir və Üzeyir bəyə deyir: "Bir yox, iki belə opera yaratmaq lazımdır".

Stalinin göstərişi ilə Azərbaycandan gələn nümayəndə heyətinin şərəfinə ziyafət təşkil edilir. Həmin məclisdə Üzeyir bəy Hacıbəyliyə yuxarı başda Stalinlə Mircəfər Bağırovun yanında yer göstərilir. Stalin Üzeyir bəylə xeyli söhbət edir və "Arşın mal alan"a hələ Gürcüstanda olarkən baxdığını bildirir. Hətta bu əsərdən parçalar oxuyur. "Koroğlu"dan sonra Üzeyir bəy Azərbaycan SSR-in Xalq artisti fəxri adına layiq görülür.

Ü.Hacıbəylinin üç şedevr musiqili komediyası var ki, onlara onilliklər boyu sevilə-sevilə tamaşa edilir, həmişə yadda qalır. Bunlar "Ər və arvad", "O olmasın, bu olsun" və "Arşın mal alan"dır.

"Arşın mal alan"ın uzunömürlülüyünü və şöhrətini sübut etmək üçün bir neçə faktı göstərmək kifayətdir. Bu operetta 70-ə yaxın xarici dilə tərcümə olunub, 100-dən çox teatrın səhnəsində oynanılıb, beş dəfə ekranlaşdırılıb.

Üzeyir bəyin komediyalarında, xüsusilə musiqili komediyalarında obrazların bədii təsir prinsipi əsas yer tutur. Bu komediyaların ədəbi mətninin bəstəkarın özü tərəfindən yazılması da onun böyük istedadını təsdiqləyən faktdır. Həmin əsərlərdə müəllif olduqca canlı səhnələr, yaddaqalan obrazlar, dildən-dilə düşüb söylənilən komik vəziyyətlər yaradır. Üzeyir bəyin komediyalarında süni heç nə yoxdur, ən kiçik epizodlar da həyatın bir parçasıdır.

### Üzeyir bəy hamar ömür yolu yaşamamışdır

Yaradıcılığının ilk addımlarından əsərlərinin üslubu, xüsusiyyətləri ətrafında mübahisələr getmişdir, hətta onu ittiham da etmişlər. Bir dəstə adam bəstəkarı xalqın mənəviyyatına, ruhuna zidd mövqe tutmaqda, ondan uzaqlaşmaqda günahlandırırdı. Digərləri isə tutduğu istiqamətin onu məhdudluğa apardığına, folklor dairəsindən çıxa bilmədiyinə, musiqinin primitiv və müasirlikdən uzaq olduğuna görə qınayırdılar. Lakin istər əsl mütəxəssislərin fikrinə, istərsə də zamanın təsdiqlədiyi gerçəkliyə görə bu baxışların hər ikisi yanlış idi.

Təkcə musiqili səhnə tamaşalarının tərəfdarı olmadığını vurğulayan Üzeyir bəyin fikrincə, "ictimai tərbiyə üçün faciə də, dram da, komediya da, opera da, operetta da lazımdır!", deyirdi. Görkəmli yazıçı Mirzə İbrahimov "Xalq sənətkarı" məqaləsində yazırdı: "1916-cı ildə "Ölülər" müvəffəqiyyətlə tamaşaya qoyulanda Üzeyir bəy Hacıbəyli bu hadisəni Azərbaycan dramaturgiyası və teatr tarixində bir bayram kimi qarşılayanlardan idi". Bütün bunlar onu göstərirdi ki, Üzeyir bəy münaqişələr və mübahisələr dövründə yazdığı məqalələrdə böyük sənət uğrunda çarpışırdı, Azərbaycan musiqisini və xüsusən opera sənətini görünməmiş zirvəyə qaldırmaq üçün vuruşurdu.

Digər tərəfdən, Üzeyir bəy qəlbi və ruhu ilə xalqına bağlı bir insan, sənətkar və şəxsiyyət idi. Bu, həm onun tərbiyəsindən, böyüyüb boya-başa çatdığı mühitdən irəli gəlir, həm mənəviyyatından qaynaqlanır, həm də xalqın tarixini, mədəniyyətini dərindən bilməsinə söykənirdi.

Üzeyir bəyi istəməyənlər arasında bədxah qonşularımız - ermənilər üstünlük təşkil edirdi. 1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi mart qırğınları zamanı daşnaklar Üzeyir bəyin evini güllə atəşinə tutmuşlar. Hər vasitə ilə bu böyük bəstəkarın məhvinə çalışmışlar. Ona görə də bu mənfur millətin nümayəndələri - erməni millətçiləri Ü.Hacıbəyliyə zərbə vurmağa həmişə fürsət axtarırdılar. 1939-cu ildə Moskvada ittifaq miqyasında milli musiqi alətləri ifaçılarının müsabiqəsi keçirilir və Stalinin göstərişinə əsasən, münsiflər heyətinə Ü.Hacıbəyli başçılıq edir. Bakı erməniləri bundan qıcıqlanaraq "yuxarı"ya məktub yazırlar ki, guya Hacıbəyli qeyri-millətlərin nümayəndələrinin müsabiqədə iştirakına mane olur. 1930-cu illər üçün bu, ən ağır ittiham idi. Üzeyir bəyin yaxın qohumu Ramazan Xəlilov xatirələrində yazırdı ki, Molotov ona ünvanlanan bu məktuba dərkənar qoyaraq bəstəkara göndərir: "Özünüz həll edin". Bu böhtan bəstəkarı özündən çıxarır və o, böyük stres keçirir və əsəbdən şəkər xəstəliyinə tutulur.

Ü.Hacıbəyli yaradıcılığının çiçəkləndiyi bir dövrdə dünyasını dəyişir. 23 noyabr 1948-ci ildə, 63 yaşında vəfat edir. O, həyatının sonunda "Firuzə" operası üzərində işləyir. Bu yarımçıq əsərdən qalan təkcə Firuzənin ariyası olur. Kim bilir, o, hələ neçə belə əsər yaradacaqmış?!

Üzeyir bəy haqqında çox deyilib, çox yazılıb. Bundan sonra da yazılacaq. Bütün deyilənlərə və gələcəkdə deyiləcəklərə Ulu Öndər Heydər Əliyevin sözlərini başlıq kimi götürsək, böyük bəstəkarımıza əsl qiymətini vermiş olarıq: "Üzeyir Hacıbəyli fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Kəhrizlidə bir ev var...

AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli Ağcabədi rayonunun Kəhrizli kəndində görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Cəlil Məmmədquluzadənin sadiq silahdaşı və tale ortağı Həmidə xanım Məmmədquluzadənin ev-muzeyində olub, muzeyin kollektivi və kənd sakinləri ilə görüşüb.



Tanınmış Azərbaycan ziyalısı Həmidə xanım Məmmədquluzadənin ev-muzeyi bu adlı-sanlı ziyalının mənsub olduğu ocağına - Cavanşirlər nəslinə məxsus tarixi binada yerləşir. Bu Tarixi bina Həmidə xanım Məmmədquluzadənin vəfatından sonra əvvəlcə orta məktəb, sonra musiqi məktəbi kimi fəaliyyət göstərib, 2005-ci ildən isə Ağcabədi rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı statusunda Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinə çevrilib. Muzeyin direktoru Zeynəb Quliyevanın bu mədəniyyət ocağının tarixi, inkişaf yolu və müasir imkanları haqqında verdiyi məlumatlar muzeyin fondu və ekspozisiyasına dair dolğun təsəvvür yaradıb.

Muzeydə Həmidə xanım Məmmədquluzadənin atası, dövrünün tanınmış tarixi şəxsiyyətlərindən olan Əhməd bəy Cavanşirin (1828-1903) tərcümeyi-hal sənədləri, nadir fotoları nümayiş etdirilir, əlyazmaları qorunub saxlanılır.

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığına, ailə üzvlərinə dair kitablar, fotolar, məktublar, xatirə əşyaları muzeyin əsas eksponatları sırasında xüsusi yer tutur.

Muzeydə Həmidə xanım Məmmədquluzadə ilə bağlı çoxsaylı şəkillər, məktublar, xatirə əşyaları və nadir əl işləri nümayiş etdirilir. Burada həmçinin Kəhrizli kəndinin tarixinə və yetirmələrinə dair materiallar da var.

Həmidə xanıma aid bir çox xatirə əşyaları, xüsusən zövqlə toxunmuş əl işləri Kəhrizli muzeyinin nadir eksponatlarındandır.

Akademik İsa Həbibbəyli muzeyin əməkdaşları, rayonun mədəniyyət işçiləri və kənd camaatı qarşısında Cəlil Məmmədquluzadə və Həmidə xanım Məmmədquluzadə münasibətləri, onların övladları, nəslin davamının sonrakı taleyi ilə əlaqədar məruzə ilə çıxış edib, suallara cavab verib. Sonra Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənovla birlikdə Həmidə xanım Məmmədquluzadə muzeyindəki xatirə otaqları və eksponatlar ilə tanış olub, bəzi tövsiyələrini və arzularını bildirib, muzeyin rəy kitabına aldığı təəssüratlar əsasında özünün müsbət fikirlərini yazıb. Muzeyin əməkdaşlarının və tədbirin iştirakçılarının birgə xatirə şəkilləri çəkilib.

Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinin rolu, əhəmiyyəti və perspektiv imkanları haqqında danışıb və görüləcək işləri nəzərə çarpdırıb.

Akademik İsa Həbibbəyli son illərdə Cəlil Məmmədquluzadə və müasirləri haqqında çap olunmuş kitabları Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinə hədiyyə edib.

Sonra akademik İsa Həbibbəyli Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov və Kəhrizli kənd bələdiyyəsinin sədri Rayis Məhərrəmov ilə birlikdə Kəhrizli qəbiristanlığına gedərək, orada Əhməd bəy Cavanşirin və Cəlil Məmmədquluzadənin qardaşı, Səttarxan və Xiyabani hərəkatının fəal iştirakçısı Ələkbər Məmmədquluzadənin (1872-1922) və digər şəxslərin məzarlarını ziyarət ediblər. Tanınmış şəxsiyyətlərin məzarlarının olduğu Kəhrizli qəbiristanlığının daha da abadlaşdırılması ətrafında söhbətlər aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ombudsman Beynəlxalq Sülh Günü ilə bağlı müraciət yayıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) 21 Sentyabr - Beynəlxalq Sülh Günü ilə bağlı müraciət yayıb.**

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müraciətdə Beynəlxalq Sülh Gününün əsasının 1981-ci il noyabrın 20-də BMT Baş Assambleyası tərəfindən qoyulduğu qeyd olunur.

Vurğulanır ki, bu gün insan hüquqlarının fövqündə dayanan, bəşəriyyətin dayanıqlı inkişafına ciddi maneələr yaradan və həlli olduqca vacib olan qlobal problemlərindən biri kimi dünyada sülhün bərqərar edilməsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi baxımından da əhəmiyyətlidir. Bu ilin mövzusu "Ədalətli və dayanıqlı dünya naminə "daha yaxşı bərpa" adlanır.

Qeyd olunur ki, beynəlxalq və ölkə miqyasında insan hüquq və azadlıqlarının etibarlı şəkildə müdafiə edilməsi üçün sülh və təhlükəsizliyin təmini ən mühüm amillərdən biridir. Bu gün dünyada sülh qlobal çağırış qismində çıxış edir və dövlətlərin suverenliyinin qorunması, birgəyaşayışın təşviq edilməsi fonunda ölkələr, konfessiyalar və sivilizasiyalar arasında genişlənən ziddiyyətlər, davam edən münaqişələr və yaranan yeni müharibə ocaqları sülhün təmin olunmasına birbaşa maneə törədir. Hazırda bu cür silahlı münaqişə və müharibələrin hələ də davam etməsi nəticəsində milyonlarla insan doğma yurdlarından didərgin salınır.

Təəssüf ki, sülh prosesinə davamlı olaraq maneə yaradan Ermənistanın uzun illər boyu Azərbaycana qarşı işğalçılıq, etnik təmizləmə siyasəti regionda sabitliyə və əmin-amanlığa daimi təhdid və təhlükədir.

Diqqətə çatdırılır ki, BMT Təhlükəsizlik Şurasının Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıtması, bununla da regionda davamlı sülhün və təhlükəsizliyin təmini ilə bağlı qətnamələri kağız üzərində qalmışdır. Problemin həllində vasitəçilik missiyasını həyata keçirən beynəlxalq təşkilatların apardıqları uzun sürən sülh danışıqları isə heç bir səmərə verməmişdir.

Beynəlxalq səviyyədə heç bir təzyiqə məruz qalmayacağına əmin olan və bundan ruhlanan Ermənistanın siyasi-hərbi rəhbərləri cəzasızlıq mühitindən ruhlanaraq Azərbaycana qarşı sülh və insanlıq əleyhinə cinayətləri, müharibə cinayətlərini, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı cinayət əməllərini davam etdirmişlər.

BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, Azərbaycanın özünümüdafiə hüququnun mövcudluğuna baxmayaraq, dövlətimiz beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına sadiq qalmaqla daim sülhsevər siyasət aparmış, uzun müddət səbir edərək, ərazi bütövlüyünü sülh yolu ilə həll etməyə çalışmışdır. Lakin bütün cəhdlərə baxmayaraq, Ermənistan ikili standartlarla pərdələnərək özünün işğalçılıq siyasətindən əl çəkməmişdir.

Ötən ilin iyulunda yenidən Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistan silahlı qüvvələri 2020-ci ilin 27 sentyabr tarixindən başlayaraq Azərbaycan silahlı qüvvələrinin bölmələrini, həmçinin cəbhə bölgəsindən uzaq məsafədə yerləşən və əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrini qəsdən və məqsədli olaraq atəşə tutmuşdur. Nəticədə 12-si uşaq olmaqla, 94 mülki şəxs həlak olmuş, 50-si uşaq olmaqla, 414 nəfər yaralanmış, 3410-dan çox ev, 120 çoxmənzilli yaşayış binası və çoxlu sayda məktəb, xəstəxana, uşaq bağçası da daxil olmaqla, 512 mülki infrastruktur dağıdılmışdır.

Bütün bunlar isə hərbi münaqişələr zamanı mülki əhalinin - uşaqların, qadınların, ahılların, əlilliyi olan şəxslərin insan hüquqlarının qorunmasına dair beynəlxalq müqavilələrin, konvensiyaların müddəalarının kobud şəkildə pozulması ilə nəticələnmişdir.

Ermənistan tərəfindən qadağan olunmuş kimyəvi silahlardan istifadə edilməklə, qəsdən və məqsədli şəkildə kütləvi yanğınlar törədilməklə həyata keçirilmiş ekoloji terror aktları nəticəsində Azərbaycanın Qarabağ bölgəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmış, müxtəlif nadir bitki və heyvan növləri məhv olmuş, çay və göllərdə özünü tənzimləmə prosesinin dayanması su hövzələrinin bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilməsinə gətirib çıxarmışdır.

Vurğulanıb ki, Azərbaycan dövləti beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpasına və regionda davamlı sülhün və təhlükəsizliyin bərqərar edilməsinə nail olmaq məqsədilə 2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixləri ərzində həyata keçirdiyi 44 günlük uğurlu əks-hücum əməliyyatları nəticəsində Ermənistanın işğalı altında olan torpaqlarını azad etməklə yuxarıda qeyd olunan qətnamələrin icrasını təkbaşına təmin etmişdir.

Ermənistan və Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoyulduğunu elan edən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanması ilə münaqişə artıq başa çatmışdır. 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda dövlətlərarası münasibətlərin yeni reallıqlara uyğun normallaşdırılmasına və inkişafına xidmət edən davamlı sülhün təmin olunması, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üçün yeni imkanlar yaranmışdır.

Azərbaycan tərəfi özünün ədalətli sülh siyasətinə, üçtərəfli Bəyanatda nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə sadiq qalaraq, Ermənistan tərəfindən beynəlxalq səviyyədə tanınmış sərhədlərinə və ərazi bütövlüyünə hörmət bəslənildiyi təqdirdə yekun sülh müqaviləsinin bağlanmasında, normal qonşuluq münasibətlərinin qurulmasında maraqlı olduğunu dəfələrlə bəyan etmişdir. Lakin buna baxmayaraq, Ermənistan tərəfi üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən boyun qaçırmaqla yanaşı, Azərbaycana qarşı hərbi təxribatlarını və qarayaxma kampaniyasını davam etdirir.

Qonşu dövlətlərlə dinc yanaşı yaşamaq və regional əməkdaşlığı inkişaf etdirmək prinsipini rəhbər tutan Azərbaycan Ermənistan dövləti ilə münasibətlərdəki gərginliyin azaldılması, regional sülhü möhkəmləndirməsi və əməkdaşlığın genişləndirilməsi yolunda konkret təkliflər irəli sürür. Lakin Ermənistan bu çağırışlara məhəl qoymayaraq, müxtəlif media resurslarında və sosial şəbəkələrdə azərbaycanlılara qarşı nifrət təbliğatını davam etdirir.

Azad olunmuş ərazilərdə şəhərlər, qəsəbələr, kəndlər Ermənistan silahlı qüvvələri tərəfindən demək olar ki, tamamilə dağıdılmış, kütləvi şəkildə talan edilmişdir. Daha ciddi təhlükə isə eyni zamanda həmin ərazilərdə yüz minlərlə mina basdırılmasıdır. Bu isə insanların yaşamaq hüququna təhdid olmaqla yanaşı, məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasına maneə törədir.

Həmçinin bildirilir ki, müharibənin başa çatmasından sonra yalnız hərbi qulluqçuların deyil, mülki şəxslər də minaya düşərək həlak olub və ya yaralanıb. Mina xəritələrini Azərbaycana təhvil verməkdən boyun qaçıran Ermənistan tərəfi insanların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqla bərabər, işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə də maneə törədir.

Ermənistan, həmçinin müharibə başa çatdıqdan sonra da itkin düşənlərlə bağlı məlumat mübadiləsində əməkdaşlıqdan boyun qaçırır.

Sonda ombudsman beynəlxalq insan hüquqları təşkilatlarını, dünya dövlətlərini, xarici ölkələrdə fəaliyyət göstərən ombudsman təsisatlarını və digər milli insan hüquqları institutlarını regionda pozulan insan hüquqlarının bərpası naminə Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsi, daimi sülhün bərqərar olması istiqamətində birgə səylər göstərməyə, Ermənistanı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət bəsləməyə, mülki əhalinin həyat və sağlamlığı üçün təhlükə yaradan, fundamental insan hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş təxribatçı əməllərdən çəkinməyə, tərəflər arasındakı dövlət sərhədinin dəqiqləşdirilməsi məqsədilə delimitasiya və demarkasiya prosesinin obyektiv şəkildə həyata keçirilməsinə və regionun siyasi-iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən yekun sülh müqaviləsinin bağlanmasına mane olan əməllərə son qoymağa, Birinci və İkinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərin taleyi barədə obyektiv məlumatın təqdim edilməsi və işğaldan azad edilmiş şəhər və rayonlarda basdırılmış minaların dəqiq xəritələrinin Azərbaycan tərəfinə təhvil verilməsi ilə bağlı təcili tədbirlər görməyə, regionun inkişafı üçün əhəmiyyətli nəqliyyat kommunikasiyalarının açılmasına, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirəcək yeni nəqliyyat kommunikasiya xətlərinin inşasına, məcburi köçkünlərin və qaçqınların öz əzəli ata-baba torpaqlarına geri qayıdaraq dinc şəkildə yaşamalarına şərait yaratmaqla 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl etməyə çağırıb.

Müraciət BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycanın xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

## Biz birlikdə güclüyük!

# «Dördüncü dalğa»ya hazır olmalıyıq

### Adi qrip koronavirus qədər təhlükəli olmasa da, ondan da qorunmalıyıq

*Əvvəli 1-ci səh.*

Heç kimin çantasında spirt yoxdur. Biz pandemiyanın əvvəlindəki kimi diqqətli deyilik. Amma virus ruhdan düşməyib, o daha güclüdür. Ona görə də qurbanları artır.

"Epidemiyanın və dalğaların sönməsi üçün bütün dünyada və qonşu ölkələrdə, həmçinin bizdə əhalinin 80 faizi peyvəndlənməlidir", - deyən həkim onu da vurğulayıb ki, havalar soyuduqca respirator viruslar, eləcə də qrip ştamları aktivləşir: "Ona görə də bu gün insanları düşündürən, çaş-baş salan, əslində, vahimələndirən suallardan biri də belədir: antibiotik dərmanlardan lazım gəldi-gəlmədi istifadə etmək olarmı, mövsümi soyuqdəymə nəticəsində viruslara yoluxmamaq üçün nə etməli?"

Virusoloqlar bunun heç də mürəkkəb olmadığını deyirlər: "Çox sadə səslənsə də, əlləri tez-tez yumaq viruslara qarşı səmərəli vasitədir. 80 faiz infeksion xəstəliklər toxunma yolu ilə keçir. Yəni insan əlləri ilə toxunduğu əşyalardan (nəqliyyatda tutacaqlar, qapılar, oturacaqlar və s.) virusu yaxalayır. Sonra əllərlə gözə, ağıza, burnuna toxunub zərərli mikroorqanizmləri daxilə keçirirlər. Ona görə çöldən evə gələn kimi, eləcə də ofisdə iş saatlarında hər bir saatdan bir əlləriniz sabunla yuyulmalıdır ki, xəstələnmək riski azalsın. Əllər sabunla 30 saniyə sürtülməli, sonra yuyulmalı, daha sonra qurudulmalıdır. Əgər su yoxdursa, yanınızda 60 faizli spirt saxlayıb əllərinizi və masanızı gündə 3 dəfə dezinfeksiya edin. Ümumiyyətlə, antiseptik spreyi həmişə yanınızda saxlayın. Əgər işdə kimsə xəstələnibsə və siz o adama yaxınsınızsa, birinci növbədə o da, siz də qoruyucu maska taxmalı, daha sonra bu spreylə hər 30 dəqiqədən, bir saatdan bir əllərinizi, masanı silməlisiniz. Ətrafdakılar sizə normal kimi baxmaya da bilər, çünki onlar bilmirlər ki, qrip viruslarından qorunmağın yolu əsasən budur. Viruslar müxtəlif əşyaların səthində bir neçə saat yaşaya bilir".

Mütəxəssislər onu da məsləhət görürlər ki, müxtəlif bitki və ədviyyatlı çaylar için: "Viruslar burun və ağızla daha çox keçir. Xəstələnəndə burun axması normaldır. Qriplə mübarizədə immuniteti gücləndirmək üçün ən lazımlı vitaminlər D və C-dir. Əgər sizdə bu 2 vitaminin çatışmazlığı varsa, tez-tez xəstələnəcəksiniz. Analiz verib bu vitaminlərin orqanizmdə kifayət qədər olub-olmadığını təyin edin. Çatışmazlıq aşkar olunduqda həkimin məsləhəti ilə vitaminləri qəbul edin".

Həkimlər deyirlər ki, adi zökəm, soyuqdəymə, respirator xəstəliklərindən qorunmağın peyvəndi yoxdur. Çünki onun törədicisi 200 adda virusdan biri ola bilər. Amma konkret qrip ştamlarına qarşı peyvəndlər var. Bir neçə ildən bir bu peyvəndlər yenilənir, gücləndirilir: "Qripdən qorunmaq üçün sentyabr ayından artıq vaksin vurdurmalısınız. Vaksini oktyabrın 15-nə vurub bitirmək lazımdır. Qrip vaksini 6 aylıqdan 70 yaşa kimi hər kəsə oluna bilər".

Mütəxəssislərin fikrincə, immuniteti qaldırmağın yolu qidalanmadan keçir. Kolorili qidalanma, meyvə-tərəvəzlərin qəbulu çox vacibdir. Əgər qrip və zökəm varsa, özünüzü və ətrafdakıları qorumağın yeganə yolu evdə qalmaqdır. Bu, ən azı 3 gün olmalıdır: "Əgər mütləq işə getməlisizsə, maska, spirt, dezinfeksiyaedici məhlulu özünüzlə götürün. Ən yaxın iş yoldaşınız, həmkarınız sizdən 1,5 metr aralı olmalıdır. Kütlə arasında çox gəzməyin, uşaqlara toxunmayın. Nəqliyyatdan çıxan kimi əllərinizi dezinfeksiya edin. Bütün bunlar respirator xəstəliklərdən qorunmaq üçün yeganə yol deyil. Unutmayaq ki, mövsümi xəstəliklərdən qorunmaq elə COVID-19-a yoluxmamaq qədər vacibdir".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







# Vaksinasiya prosesi zamanı aşkarlanmış qanun pozuntuları ilə bağlı cinayət işi başlanıb

Maştağa qəsəbəsində yerləşən 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında COVID-19 əleyhinə aparılmış vaksinasiya prosesi zamanı qanunsuzluqlara yol verilməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunda araşdırma aparılıb.

Sabunçu Rayon Prokurorluğundan AZƏRTAC-a bildiriblər ki, araşdırmalarla həmin xəstəxananın vəzifəli şəxslərinin səlahiyyətlərindən sui-istifadə edərək bir neçə nəfərə vaksin vurulmadığı halda onların guya peyvənd edilmələri ilə bağlı rəsmi sənədlərə müvafiq qeydlər aparmaqla həmin məlumatların elektron məlumat bazasına yerləşdirmələri müəyyən edildiyindən fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda həmin cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində istintaq hərəkətləri davam etdirilir.

# Təhsil eyni, geyim fərqli…

### Dövlət liseylərində geyimlər yalnız görünüşünə görə deyil, qiyməti ilə də adi məktəb formalarından fərqli və bahadır

*Əvvəli 1-ci səh.*

Əgər orta büdcəli Azərbaycan ailəsində 2 və daha çox şagird liseydə oxuyarsa, bu, həmin ailənin aylıq gəlirinin heç də az olmayan hissəsinin bu geyimlərin alınmasına sərf edilməsi deməkdir.

Ölkədə təqribən 60 məktəb-lisey, 50 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziyanın olduğu nəzərə alınarsa, geyim forması ilə bağlı bu məsələnin heç də az ailəyə aid olmadığı aydın olar. Ancaq valideynləri narazı salan təkcə geyimlərin qiyməti deyil, həm də onların məhdud ünvanda satılmasıdır. Valideynlər bunun çətinlik yaratdığını söyləyirlər.

Təhsil Nazirliyindən sorğumuza verilən cavabda bildirilir ki, birbaşa onların tabeliyində olan liseylərin şagirdləri üçün geyim formasını hər bir liseyin özü sərbəst şəkildə müəyyən edir. Təhsil Nazirliyi bu məsələyə müdaxilə etmir.

Bakıdakı T.İsmayılov adına 6 saylı məktəb-liseyin direktoru Gülşən Orucovanın sözlərinə görə, məktəbli formasını təxminən 10 il əvvəl yuxarı sinif şagirdləri və valideynlər arasında aparılan sorğu və keçirdikləri müsabiqə əsasında müəyyən ediblər. Məktəbli forması hazırlanarkən onun rahatlığı, keyfiyyətli materialdan hazırlanması kimi meyarlar əsas götürülüb. Məktəbli formasının hazırlanması üçün parça seçilərkən valideyn komitəsinin sədrlərinin, müəllimlərin birgə iştirakı ilə müzakirələr aparılıb. Bu məktəbin ətək və ya şalvardan, köynəkdən, jaketdən ibarət bir dəst formasının qiyməti 75 manat müəyyən edilib. Geyimlərin tikilməsi üçün müəssisənin necə seçilməsinə gəldikdə, direktor qeyd etdi ki, onların geyimlərini tikən müəssisə yalnız 6 saylı məktəb-liseyin deyil, Bakının bir neçə liseyinin sifarişini həyata keçirir: "Elə bir neçə lisey üçün geyimlər tikdiyindən həmin müəssisəyə müraciət etdik. Bizim geyimlər həmin müəssisənin öz mağazasında satılır. Biz valideynləri həmin ünvana yönəldirik, valideynlər də həmin ünvandan geyimləri əldə edirlər".

Təhsilin idarəolunması üzrə ekspert Qoşqar Məhərrəmov bu fikirdədir ki, məktəblərdə vahid geyim forması tətbiq edildikdə sosial bərabərsizlik özünü göstərmir. Şagirdlər özlərini daha rahat hiss edirlər, geyimlərini maddi imkanlarının göstəricisi olaraq nümayiş etdirmirlər. Ekspert deyir ki, məktəblərə öz geyimlərini hazırlamaq imkanının verilməsi prosesi bazara və ticarət məsələsinə çevirməməlidir. "Təhsil Nazirliyinin tabeliyində olan liseylərin geyimləri müxtəlif mağazalardan alına biləcək formalar olmalıdır. Hər hansı bir dükanla anlaşma artıq prosesi ticarətə çevirir. Formaların satışı ilə bağlı təhsil müəssisəsi və ticarət obyekti arasında əldə edilən anlaşma sayəsində məktəb geyimlərinin satışından əlavə gəlir əldə edilir. Bu əlavə gəlir də valideynlərin ciblərindən çıxır. Məsələn, 10 manata olan mal 12 manata satılır. Buna görə də geyimlərin satışı bir müəssisəyə həvalə edilməməlidir. Valideynlərin formaları ala biləcəkləri ünvanların seçimi məsələsində sərbəst olmaq daha düzgün yoldur. Geyimin satışı elə olmalıdır ki, valideyn onu "Sədərək" Ticarət Mərkəzindən də, hansısa bir "mall"dan da ala bilsin. Yəni istərsə, ən bahalısını, istərsə də ən ucuzunu ala bilsin. Bu seçim valideynin öhdəsinə buraxılmalıdır. Nəzərə alaq ki, liseylərdə aylıq gəliri 500 manat olan ailənin uşağı da təhsil alır. Ona görə də hamının maddi vəziyyəti nəzərə alınmalıdır".

Azərbaycan Dövlət İqtisad Universitetinin Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Əli Əlirzayev liseylərin şagirdlərinin geyimlərinin adi ümumtəhsil müəssisələrinin şagirdlərinin geyimlərindən fərqləndirilməsini vacib sayır. Amma hesab edir ki, geyim formasının dizaynı dövlət tərəfindən müəyyən edilməli, bu formalar dövlətin sifarişi ilə istehsal olunmalı və satılmaq üçün mağazaya verilməlidir. Geyimlərin satışı üçün xüsusi mağazalar müəyyən olunmalıdır: "Məktəb geyimlərinin satışından yalnız sui-istifadə halları deyil, hətta monopoliya halları da ola bilər. Bunun olmaması üçün dövlət, Təhsil Nazirliyi özü bu geyimləri sifariş verməlidir".

İqtisadçı alim bu fikirdədir ki, dövlət məktəbli formalarının qiymətlərinin formalaşmasında iştirak etməlidir. Bunu sosial ədalətin təmin edilməsi baxımından vacib sayan Ə.Əlirzayev hesab edir ki, məktəbli geyiminin qiymətlərinə dövlət nəzarəti olmalıdır: "Məktəblərin geyim formaları dizayn baxımından bir-birindən fərqlənə bilsə də, hamısı ümumi bir standartlara uyğun olmalıdır. Geyimlərin ölçülərindən asılı olaraq, onların qiymətləri fərqlənə bilər. Amma yaxşı olar ki, geyimlər fərqli ünvanlarda fərqli qiymətə deyil, hər yerdə eyni qiymətə satılsın. Qiymətlərin üzərində dövlət nəzarətinin olması vacibdır".

Məktəbə hər kəsin eyni geyim formasında gəlməsi uğurla sınaqdan çıxarılmış bir təcrübədir. Vahid məktəbli forması insanlar arasındakı sosial bərabərsizliyi nümayiş etdirmədiyindən şagirdlərin daha rahat təhsil şəraitində oxumasına imkan yaratmaqla, dolayı yollarla təhsilin keyfiyyət göstəricilərinin də yüksəlməsinə səbəb olur. Bu formanın tətbiqinin müsbət tərəflərini qiymətləndirən mütəxəssislər onun hazırkı dövrdə də tətbiqinin tərəfdarıdırlar. Nəinki mütəxəssislər hətta valideynlər də məktəblərdə vahid geyimdən istifadənin tərəfdarıdırlar. Hesab edirlər ki, dövlət lisey və gimnaziyalarının geyimlərinin istehsalı və satışının təşkilinə dövlətin, Təhsil Nazirliyinin nəzarəti olmalıdır. Bu nəzarətin təmin edilməsi bu sahədəki müəyyən boşluqların aradan qaldırılmasına təsir göstərər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# DSX-nin hərbi qulluqçusu şəhid Məhəmmədəli Ələkbərovun xatirəsi anılıb





Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş şəhid-sərhədçi gizir Məhəmmədəli Ələkbərovun doğum günündə anım tədbiri keçirilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 20-də DSX-nin bir qrup hərbi qulluqçusu, ailə üzvləri, M.Ələkbərovun xidmət etdiyi hərbi hissənin və ictimaiyyətin nümayəndələri şəhidin boya-başa çatdığı Ağstafa rayonunun Poylu kəndində məzarını ziyarət edib, önünə əklil qoyublar.

Şəhidin xatirəsinə yaradılmış abidə-bulaq kompleksində davam edən anım mərasiminə qatılanlar 2014-cü ildə Dövlət Sərhəd Xidmətində hərbi xidmətə qəbul olunan Məhəmmədəlinin xidməti fəaliyyəti müddətində çalışqanlığı, intizamı ilə seçildiyini, qazandığı bilik və bacarıqlarını Vətən müharibəsinin ilk günündən döyüş meydanında məharətlə nümayiş etdirdiyini bildiriblər. Zəngilan şəhərinin azad olunması uğrunda əməliyyatlarda düşmən postlarının ələ keçirilməsində Məhəmmədəlinin xüsusilə fərqləndiyi, düşmənin əks-hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olduğu qeyd edilib.

Sərhədçi şəhid Məhəmmədəli Ələkbərovun döyüş şücaətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə onun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunduğu vurğulanıb.

Gizir Məhəmmədəli Ələkbərovun ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə edib, şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsi, ailələrinin ziyarət edilməsinin dövlətimizin Vətən müharibəsinin iştirakçılarına göstərdiyi diqqətin, şəhidlərə ifadə olunan ehtiramının bariz nümunəsi olduğunu bildiriblər.

*"Azərbaycan"*

# Xəzər dənizində külli miqdarda tütün məmulatları qaçaqmalçılığının qarşısı alınıb

Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi, qaçaqmalçılıq və digər qanunsuz fəaliyyətlərlə mübarizə sahəsində tədbirlər davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 21-də DSX-nin və Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi birgə tədbir nəticəsində dənizdə külli miqdarda tütün məmulatlarının qanunsuz qaçaqmalçılığının qarşısı alınıb. Salyan rayonu istiqamətindən naməlum iki üzmə vasitəsinin rejim qaydalarını pozaraq gecə vaxtı icazəsiz dənizə çıxması barədə qabaqlayıcı məlumata əsasən, DSX Sahil Mühafizəsinin Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi həmin əraziyə göndərilib. Üzmə vasitələrinin hərəkəti texniki müşahidə avadanlığı və radarlar vasitəsilə nəzarətə götürülüb, sahildən 1,6 mil məsafədə iki nəfər heyət üzvü olan bort nömrəsiz "Yamaha-8" mühərrikli taxta tipli qayıq və onun yedəyində mühərriksiz rezin qayıq saxlanılıb. Üzmə vasitələrinin heyəti özlərini Neftçala rayonunun Qoltuq kənd sakinləri 1978-ci il təvəllüdlü Quliyev Süleyman Qəhrəman oğlu və 1987-ci il təvəllüdlü Abuşov Sahib Qarakişi oğlu kimi təqdim ediblər.

Qayıqlara baxış zamanı ümumilikdə 48 min 680 qutu müxtəlif növ tütün məmulatları ("Manchester", "Magna", "Senator", "Kent", "Platinum", "King", "Want") aşkarlanıb.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Azərxalça" ASC-nin idarə heyətinin sədrinin barəsində cinayət işi məhkəməyə göndərilib

"Azərxalça" ASC-nin idarə heyətinin sabiq sədri Vidadi Muradovun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş materiallar əsasında aparılmış araşdırma nəticəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı yekunlaşdırılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaq-əməliyyat tədbirləri ilə Vidadi Muradovun həmin vəzifədə işləyərkən təsisçisi olmaqla faktiki rəhbərliyi həyata keçirdiyi "Azər-İlmə" MMC-nin Bakı şəhəri ərazisində yerləşən inzibati binasının "Azərxalça" ASC-yə mövcud bazar qiymətlərindən yüksək məbləğə icarəyə verilməsi, "Azərxalça" ASC-yə məxsus pul vəsaitinin xalça istehsalı üçün nəzərdə tutulan ipin alınması üçün formal müqavilənin bağlanması yolu ilə ayrı-ayrı hüquqi şəxslərə məxsus bank hesablarına köçürülərək sonradan nağdlaşdırılması, ölkə ərazisində tikintisi həyata keçirilmiş 23 müəssisə üzrə smeta sənədlərində iş həcmlərinin və qiymətlərin əsassız olaraq şişirdilməsi, işlərin daha ucuz və keyfiyyətsiz işlərlə əvəz edilməsi və ya yerinə yetirilməməsi və digər qanunsuz üsullarla ona etibar edilmiş ümumilikdə 21 milyon 673 min manat məbləğində pul vəsaitini mənimsəmə və israf etmə yolu ilə talaması, habelə xüsusilə külli miqdar təşkil edən cəmi 640 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən qəsdən yayınması, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və vəzifə saxtakarlığına yol verməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Vidadi Muradova Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 213.3-cü (vergiləri ödəməkdən yayınma - xüsusilə külli miqdarda törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə - ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilərək məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib və cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İstintaq zamanı dövlətə dəymiş ziyanın ödənilməsi məqsədilə təqsirləndirilən şəxs Vidadi Muradov və onun ailə üzvlərinin adlarına olan ümumi dəyəri 30 milyon 587 min manat təşkil edən yaşayış və qeyri-yaşayış sahələri, habelə "Azər-İlmə" MMC-nin səhm paylarının və aktivlərinin üzərinə məhkəmə qərarı ilə həbs qoyulub.

Vidadi Muradovla birgə cinayət əməllərinin törədilməsində iştirak etmiş digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq istintaq davam etdirilir.


## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.09.2021-ci il saat 23:00-dan etibarən 23.09.2021-ci il səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs "Tibb müəssisələrinin istifadəsi üçün spesifik tibbi ləvazimat və sərfiyyat materialları"nın satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310 07 70 (daxili 2011), E-mail: asalayev@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1. Tibb müəssisələrinin istifadəsi üçün spesifik tibbi ləvazimat və sərfiyyat materiallarının satın alınması**

İştirak haqqı:
LOT-1: 500.00 (beş yüz manat 00 qəpik) manat;
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK - AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
*7. İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*8. İddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır.*
*9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır);*
*10. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*11. Malların gigiyenik şəraitdə istehsalı və istifadəyə uyğunluğu ilə bağlı İSO 9001-2015, 14001-2015 və 45001-2018 və s. müvafiq sertifikatlar.*
*12. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **25.10.2021-ci il saat 17:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **01.11.2021-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **02.11.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "nəqliyyat vasitələrinin cari təmir xərcləri"nin kotirovka üsulu ilə satın alınması üzrə 02 sentyabr 2021-ci il tarixli yekun protokoluna əsasən "Şərqmotors" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 21 sentyabr 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə 26.08.2021-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsində əsasən "SİMPLEX" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Yanğın mühafizə sistemlərinin alınıb-quraşdırılması işlərinin satın alınması məqsədilə 16.08.2021-ci il tarixdə keçirilmiş təkliflər sorğusu prosedurunun nəticəsinə əsasən ELEMENT YT MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən İstilik sistemləri və elektrik təchizatı üçün avadanlıqların alınıb-quraşdırılması işlərinin satın alınması məqsədilə 31.08.2021-ci il tarixdə keçirilmiş təkliflər sorğusu prosedurunun nəticəsinə əsasən MÜHƏNDİSLİK TİKİNTİ TƏCHİZAT MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**QADİR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildiriir və dərin hüznlə başsağlığı verirlər.

Professor Şəmsəddin Hacıyev Ziya Məmmədova və ailəsinə əzizləri

**TAHİR ƏFƏNDİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Vüqar Quliyevə əzizi

**AZƏR ƏMİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabirabaddan Fəxrəddin Pənahov Milli Məclisin deputatı Əziz Ələkbərova anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5014
Sifariş 1740
Qiyməti 40 qəpik